www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 2 may 2016-cı il Bazar ertəsi № 94 (6415) Qiymətı 60 qəpik

**Xəbər**

## Türkiyədən işğalçı Ermənistanın yuxusunu qaçıracaq texnoloji uğur

yazısı səh.6-da

**Gündəm**

### Problemli kreditlər yenidən gündəmdə - "buz tərpənib", ancaq...



Məsələdən, nəhayət, optimal çıxış yolu tapılacaqmı? Ekspertlərin gözləntiləri fərqlidir...

yazısı səh.4-də

### Qarabağda 4 günlük müharibənin başlamasından 1 ay ötdü - əsas nəticə...

yazısı səh.11-də

### Balaca Kənan ilk dəfə Nərgiz Yaqublu ilə görüşə gəldi

yazısı səh.3-də

### Günel Mövlud və Emin Millinin yaxınları azad edildi, bəs Qənimət Zahidinkilər...

yazısı səh.3-də

### Barak Obamadan Azərbaycanla bağlı zarafat

yazısı səh.2-də

### Küsülü siyasilər erməniyə qarşı eyni cəbhədə döyüşərmi?

yazısı səh.4-də

### "Azpetrol" və Rafiq Əliyev Moldovadakı korrupsiya qalmaqalında

yazısı səh.14-də

### Gədəbəy İcra Hakimiyyəti döyülən şəxsin xəstəxanaya yerləşdirilməsini yasaqlayıb

yazısı səh.13-də

### Azərbaycanda iqtisadi cinayətlərə görə məsuliyyət yüngülləşdiriləcək

yazısı səh.10-da

### Azərbaycan Mədən Sənayesində Şəffaflığın Artırılması Koalisiyasından çıxarıla bilər

yazısı səh.3-də

## Vaşinqtondan "Yaxın xaric"də Rusiyanı zəiflədəcək plan

# ABŞ KREMLƏ QARŞI ANTİ-İŞĞAL QANUNU HAZIRLAYIR - AZƏRBAYCAN UDUŞDA

Konqresdə qeydiyyatdan keçən sənəd Krım və digər ərazilərin işğalını qanunsuz elan edir, Moskvaya qarşı sanksiyaları gücləndirməyi nəzərdə tutur; sanksiyalardan forpost Ermənistana da pay düşəcək, çünki...




yazısı səh.5-də

## Naxçıvan MTN-in rəhbərinin həbsinin əsl səbəbi...

"Eldar Mahmudov təklif edib ki, Vasif Talıbovu dinlə..." - vəkildən sensasiyalı açıqlama

yazısı səh.10-da



*Fəzail Ağamalı:*

### "Demək lazımdır ki, yığışın, cəhənnəm olun, gedin!"

yazısı səh.7-də



Mikayıl Güləddinoğlu

### Məşhur teleaparıcıdan olay kimi müsahibə

yazısı səh.12-də



*Ərəstun Oruclu:*

### "Aprel əməliyyatları hələ başlanğıcdır"

yazısı səh. 8 və 9-da

**2 may 2016**

YENİ MÜSAVAT
N 94 (6415) 2 may 2016



## Obamadan Azərbaycanla bağlı zarafat

**ABŞ prezidenti Barak Obama sabiq dövlət katibi Hillari Klintonu zarafatla öz sələfi adlandırıb. Report xəbər verir ki, Amerika lideri bunu şənbə günü Ağ evdə akkreditə olunmuş jurnalistlər assosiasiyasının ənənəvi şam yeməyində çıxışı zamanı deyib.**

"Gələn il burada başqa biri dayanacaq, elə məhz bu yerdə və bu qadının kim olacağını təxmin etmək olar", - deyə növbəti ilin yanvar ayında prezidentlik müddəti başa çatacaq Obama bildirib.

Qeyd edək ki, prezident ənənəvi olaraq assosiasiyanın şam yeməyində sərbəst şəkildə çıxış edərək müxtəlif mövzularda zarafatlar edir. Keçmiş birinci xanım isə prezidentlik yarışındakı iştirakçılar arasında qalan yeganə qadın namizəddir.

ABŞ prezidenti, həmçinin prezidentlik yarışında respublikaçılar arasında favorit olan Donald Trampın əhəmiyyətli təcrübəsi ilə bağlı da zarafat edib. O, milyarderə məxsus olan "Dünya gözəli" yarışmasını xatırladıb. "Respublikaçıların siyasi elitası onun (Trampın), çox güman ki, onların namizədi olacağına şübhə ilə yanaşır. Onlar deyirlər ki, onun prezident olmaq üçün xarici siyasət təcrübəsi çatışmır. Ədalət naminə demək lazımdır ki, o, bütün illərini dünya liderləri - İsveç gözəli, Argentina gözəli, Azərbaycan gözəli və digərləri ilə görüşərək keçirib" - prezident əlavə edib.

## Jirinovski yenə də sayıqladı

### "Nə qədər ki Qarabağda Rusiya bayrağı dalğalanmır..."



**Rusiya Liberal Demokrat Partiyasının (RLDP) lideri Vladimir Jirinovski Moskvada keçirilən 1 May mitinqində növbəti dəfə Ermənistan_Azərbaycan münaqişəsinə və Qarabağda aprelin əvvəlindəki dörd günlük müharibə mövzusuna toxunub.**

Virtualaz.org "Rossiya 24" telekanalına istinadən bildirir ki, Jirinovski deyib: Qarabağda hərbi əməliyyatlar hələ qurtarmayıb, o davam edir və bundan sonra da davam edəcək".

RLDP liderinin fikrincə, münaqişənin həllinin yeganə yolu Rusiyanın regionda təmsil olunması və Rusiya bayrağının Qarabağda ucaldılmasıdır: "Nə qədər ki Qafqaz və Zaqafqaziya üzərində Rusiya bayrağı dalğalanmır, orada heç vaxt sülh olmayacaq".

## Bu gün hava yağmurlu olacaq

**Bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin buludlu olacağı, arabir yağış yağacağı olacağı gözlənilir. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən verilən məlumata görə, hava axşam dəyişkən buludlu olacaq, şimal küləyi əsəcək.**

Havanın temperaturu Abşeron yarımadasında gecə 10-13 , gündüz 15-19 , Bakıda gecə 11-13, gündüz 17-19 dərəcə isti olacaq. Atmosfer təzyiqi 757 mm civə sütunu, nisbi rütubət 75-85 faiz təşkil edəcək.

Mayın 2-də Azərbaycanın rayonlarında şimşək çaxacağı, arabir yağış yağacağı gözlənilir. Bəzi yerlərdə yağışın intensiv olacağı ehtimalı var . Səhər ayrı-ayrı yerlərdə duman, şərq küləyi əsəcək. Havanın temperaturu gecə 10-14, gündüz 17-22 , dağlarda gecə 1-6, gündüz 10-15 dərəcə isti olacaq. Ölkə ərazisində müşahidə olunan qeyri-sabit hava şəraitinin mayın 3-dək davam edəcəyini açıqlayıb.


## "Qaya Mətbuat Yayımı" MMC!

**- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Müsavat" - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün ozağa getmək lazım deyil.

**Telefonla zəng etməyiniz kifayətdir:**
**Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur.


# Azərbaycan şəhərləri üzrə İran parlamentinə seçilənlərin siyahısı açıqlandı

Aprelin 29-da İranda keçirilən parlament seçkilərinin ikinci turunda ölkənin 55 seçki dairəsində keçirilən seçkinin ilkin nəticələri artıq elan olunub. Təbii ki, bizi ən çox maraqlandıran seçkilərin nəticələrinə görə parlamentə mandat qazanan azərbaycanlıların sayıdır.



Güneydən verilən məlumata görə, Şərqi Azərbaycan vilayəti üzrə Marağa və Əcəbşer seçki dairəsindən Məhəmmədəli Hüseynzadə, Mərənd və Culfa seçki dairəsindən Məhəmməd Həsənnejad, Əhər və Heris seçki dairəsindən Beytulla Əbdullahi, Sərab seçki dairəsindən Yusif Davudi, Şəbistər seçki dairəsindən Məsumə Ağapur parlamentə seçilib. Gunaz.tv-nin xəbərinə görə, Qərbi Azərbaycan vilayəti üzrə Urmu seçki dairəsindən Hadi Bahaduri və Ruhullah Həzrətpur, Salmas seçki dairəsindən Şəhruz Bərzgər, Qoşaçay, Sayınqala və Tikantəpə seçki dairəsindən Cahanbəxş Mohebbiniya və Humayun Haşimi, Ərdəbil vilayəti üzrə Ərdəbil, Nəmin və Nir seçki dairəsindən Məhəmməd Feyzi, Parsabad və Biləsuvar seçki dairəsindən Şəkur Purhüseyn, Zəncan vilayəti üzrə isə Zəncan və Tarəm seçki dairəsindən Əli Vəqfçi və Fridun Əhmədi, Əbhər və Xürrəmdərrə seçki dairəsindən Məhəmməd Əzizi, Xudabəndə seçki dairəsindən Əhməd Beygdeli mandat qazanıb. Həmədan vilayətindəki Rəzən seçki dairəsindən Həsən Lütfi və Məlayer seçki dairəsindən Əhəd Azadixah azərbaycanlıların haqlarını qorumaq imkanı qazanıb. Lakin namizədlərin hamsının Azərbaycan türkü olub-olmadığı barədə konkret məlumat verilmir.

Xüsusilə regiondakı indiki həssas dönəmdə, həmçinin, Qarabağ cəbhəsində yaşananlara rəğmən, qonşu İranın ali qanunverici orqanında azərbaycanlıların sayının çox olması mühüm məsələdir. Hələ bir neçə il əvvəl azsaylı soydaşımızın parlament tribunasından istifadə edərək Azərbaycana dəstək verməsi, həmçinin yerli azərbaycanlıların təbii haqlarının davasını aparması bor sıra hallarda təsirsiz qalmayıb. Xatırladaq ki, ilk turda da onlarla azərbaycanlı ölkə parlamentinə mandat alıb.

❑ **Cavìd TURAN**



## Neftin qiyməti ilin sonunadək yüksələcək

**Dünya neftinin qiyməti bu il ən aşağı səviyyəyə enib və bu dünya iqtisadiyyatının inkişafından asılı olan bir haldır. Anspress-in məlumatına görə, bu barədə Beynəlxalq enerji agentliyinin rəhbəri Fatih Birol deyib.**

Fatih Birol hesab edir ki, iqtisadiyyatın əlverişli vəziyyətindən asılı olaraq, neftin də qiyməti artacaq. Qiymət artımı bu ilin sonu və ya ən geci 2017-ci ilə təsadüf edəcək.

2016-cu ildə dünyada neftə tələbat gündə 1,2 milyon barel artacaq. Bu zaman OPEK-ə daxil olmayan ölkələrdə neft hasilatı gündə 700 min barel aşağı düşə bilər. Bu da son 20 ildə ən aşağı göstərici kimi yadda qalacaq.

Cümə günü Brent Markalı neftin qiyməti 2016-ci ildə ən maksimal səviyyəyə çatıb. Neftin bir barelə görə qiyməti 48,5 dollar təşkil edib. Beləliklə, bu, 2016-ci ilin birinci rübü ilə müqayisədə 20 dollardan artıq bahalaşma deməkdir. Çünki bundan əvvəl onun bir barelinin qiyməti 30 dollardan da aşağı idi.



## Türkiyədə 2035-ci ilə qədər baş verəcək hadisələr

**Yutub video portalında Türkiyə ilə bağlı maraqlı video yayılıb. Axar.az xəbər verir ki, videoda Türkiyədə 2035-ci ilə qədər baş verməsi gözlənilən hadisələrdən bəhs olunur.**

Türkiyə ilə bağlı proqnozları təqdim edirik:

2016-cı ilin sonuna qədər Türkiyə iqtisadiyyatında ciddi dəyişiklik baş verməyəcək.

2017-ci ildə xarici qüvvələr PKK-dan istifadə edərək, Türkiyədə xaos yaratmağa çalışacaq.

2018-ci ildə Türkiyədə silah istehsalı artacaq və xaricə vertolyot, PUA və digər silahlar satılacaq.

2019-cu ildə Türkiyədə prezident və parlament seçkiləri baş tutacaq. Türkiyədə hökumətin dəyişilməsi gözlənilmir.

2020-ci ildə ABŞ-ın planlarına görə, yeni enerji mərkəzləri Mərkəzi Asiya, Qafqaz və ərəb dünyası olacaq. Sözügedən bölgələrdə türklər var və ABŞ Türkiyə ilə strateji əməkdaşlıq etmək məcburiyyətində qalacaq. ABŞ ərəblərin könlünün alınmasına görə, İsraillə bağlı səssiz qalacaq. ABŞ ərəblərin könlünü almaq üçün Türkiyə ilə yaxınlaşacaq.

2020-ci ilə qədər Türkiyənin milli TAİ qırıcısının layihəsi və istehsal planı başa çatacaq.

Türkiyənin ilk milli döyüş gəmisi 2021-ci ildə dənizə buraxılacaq.

2022, 2023 və 2024-cü illər Türkiyənin inkişaf dövrü olacaq.

ABŞ kəşfiyyatının məlumatına görə, Türkiyədə 2025-2030-cu illərdə millətçilik və islam hakim olacaq. Türkiyənin beynəlxalq arenada supergüc olması gözlənilir.

Ölkədə silahlanma artacaq və həmin vaxt digər ölkələrdə olduğu kimi, Türkiyədə də quraqlıq, qida çatışmazlığı olacaq. Bu illərdə Türkiyə kosmos gəmisi hazırlayacaq və kosmonavtlar yetişdirəcək.

2030-2035-ci illərdə kosmosa gəmi göndəriləcək və tədqiqatlar aparılacaq.

## Ana körpəsi ilə birgə intihar etdi

**Moskvada 8-ci mərtəbədən düşən 2 yaşlı uşaq sağ qalıb. Anspress-in məlumatına görə, 3 uşaq anası 2 yaşlı uşağı ilə birlikdə intihar etmək məqsədi ilə 8-ci mərtəbədən özünü atıb. Hadisə nəticəsində ana təcili yardım maşınında dünyasını dəyişsədə körpəni xilas etmək mümkün olub.**

Hazırda baş verən hadisə ilə bağlı cinayət işi qaldırılıb. İntiharın baş vermə səbəbləri üzrə özünü öldürmə həddinə çatdırmaq maddəsi ilə araşdırma işləri aparılır.

Ötən ay analoji hadisə Rusiyanın Krasnodar əyalətində baş verib. Özünü 14-cü mərtəbədən ataraq intihar etmək istəyən yeniyetmə möcüzə nəticəsində sağ qalıb.

## Türkiyədə növbəti terror - ölənlər və xeyli yaralı var

**Dünən səhər saatlarında Türkiyənin Gaziantep şəhərində bomba yüklü avtomobilə törədilən partlayış nəticəsində ölən və yaralananlarla bağlı son statistika açıqlanıb. "Hürriyet" qəzetinin məlumatına görə, Gaziantep Valiliyi partlayış nəticəsinə 2 polisin şəhid olduğunu açıqlayıb.**

Yaralıların sayı isə 22 nəfərdir. Yaralıların 18-i polis əməkdaşı, 4-ü mülki şəxsdir. Yaralı polislərdən 3-nün durumu ağırdır. Terror aktının 1-i canlı bomba olmaqla, 3 İŞİD terrorçusu tərəfindən həyata keçirildiyi ehtimal edilir. Canlı bombanın bomba yüklü avtomobili partlatdığı, digər 2 terrorçunun polislərə atəş açdıqdan sonra avtomobillə hadisə yerindən qaçdığı bildirilir.


## Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**

# Siyasi qurumlar Mədən Sənayesində Şəffaflığın Artırılması Koalisiyasında nəzarəti ələ aldı - Azərbaycan qurumdan çıxarıla bilər...

**Mədən Sənayesində Şəffaflığın Artırılması Koalisiyasının idarə heyətinə aprelin 30-da keçirilən seçkilərdə qalmaqal yaşanıb. Qurumun Şurasına və Monitorinq Qrupuna keçirilən seçkilərdə siyasi partiyalara yaxın şəxslərin daha çox seçilmələri digər şəxslər tərəfindən etirazla qarşılanıb.**



## Koalisiyanın son iclasında qarşıdurma yaşanıb; Milli Şuranın əvvəlcədən hazırladığı Koalisiya planı...; Oqtay Gülalıyevin gizli statusunda nələr var?

### **Qubad İbadoğlu:** "Yayılan xəbərlər doğru deyil"

Seçkilərlə bağlı adının çəkilməsini istəməyən Koalisiya üzvünün qəzetimizə verdiyi məlumata görə, iclasdan öncə siyasi qurumlar xüsusi bir plan quraraq üstünlük əldə etmək üçün əllərindən gələni ediblər. Nəticədə 50%-dən yuxarı siyasi qurumların təmsilçisi seçkilərdə iştirak ediblər. Bu isə, nəticələrdə özünü açıq şəkildə büruzə verib. Belə ki, siyasi partiya təmsilçiliyi olan şəxslər daha çox qurumun Şurasına və Monitorinq Qrupuna seçiliblər. Mənbə onu da qeyd etdi ki, bu işdə Milli Şura və quruma daxil olan partiyalar xüsusi fəallıq göstəriblər. Əvvəlcədən Koalisiyada fəallıq göstərməyən Milli Şura təmsilçiləri bu dəfə xüsusi canfəşanlıq göstəriblər. Nəticədə təsadüfi deyil ki, Milli Şuranın mətbuat xidmətinin rəhbəri Oqtay Gülalıyev və AXCP idarə heyətinin üzvü İlham Hüseyn Şuraya üzv seçiliblər. Qəzetimizə məlumat verən Koalisiya üzvü digər Milli Şura təmsilçilərinin adını çəkməsə də, bu iki şəxsin Şuraya seçilməsinin bir çox mətləblərdən xəbər verdiyini söylədi. Mənbə onu da qeyd etdi ki, aprelin 30-dakı seçimlərdən sonra Azərbaycanın Mədən Sənayesində Şəffaflığın Artırılması Koalisiyasında üzv kimi qalmasına da ciddi təhlükə yaranıb. Belə ki, bu ay ölkəmizin bu qurumda qalması, yaxud statusunun aşağı salınması ilə bağlı məsələ Koalisiyanın müzakirəsinə çıxarılacaq. Mənbə iddia edir ki, belə olan təqdirdə, müxalif siyasi partiyaların təmsilçiləri Azərbaycanın qurumdan çıxarılmasının, yaxud statusunun aşağı salınmasının lehinə səs verəcəklər. Əslində qalsa, burada Milli Şuranın nədən canfəşanlıq etdiyi özünü açıq şəkildə büruzə verir. Mənbə onu da bildirdi ki, Koalisiyanın son iclasında iştirak edənlərin çoxunu tanımayıb. Yığıncaq vaxtı 3-4 nəfərin daimi çıxışları eşidilib ki, bu şəxslər də Milli Şuraya yaxın şəxslər olublar. Koalisiya üzvü iclasda böyük qruplaşmaların açıq şəkildə göründüyünü bildirdi. Xüsusilə, seçkilər vaxtı bu hal sezilib. Mənbə qeyd etdi ki, bu qruplaşmalar Koalisiyanın siyasi partiyaların nəzarətinə keçməsi üçün əllərindən gələni ediblər. Sonuclardan sonra qurumun gələcəkdə müstəqil fəaliyyət göstərməsi də şübhə altına düşüb. Çünki, artıq siyasi partiya təmsilçiləri Koalisiyada 50%-dən yuxarı üstünlük təşkil edirlər. Mənbə narahatlığını gizlətməyərək, hökumətin quruma təzyiqlərini bundan sonra artıra biləcəyini və beynəlxalq aləmin qınağına tuş gələcəklərini vurğulayaraq, Koalisiyanın bundan sonra fəaliyyətinin sual altına düşdüyünü iddia etdi. Koalisiya üzvü 3 müxalif qurumun nəzarəti ələ keçirdiyini və burada ilk sırada Milli Şuranın dayandığını vurğuladı.

Redaksiyamıza məlumat verən mənbə gizli şəkildə əldə etdiyi O.Gülalıyevin Milli Şura üzvlərinin feysbuqdakı qapalı qrupunda paylaşdığı statusu göstərdi. Statusdan göründüyü kimi, Milli Şura əvvəlcədən Koalisiyanın iclasına ciddi şəkildə hazırlaşıb. Gülalıyevin nəticələri qələbə kimi qələmə verməsi bir çox üstüörtülü mətləblərin üstünü açır.

Statusu olduğu kimi təqdim edirik:

Dostlar, sizə öncədən məlumat verdiyim kimi, bu gün Mədən Sənayesində Şəffaflığın Artırılması QHT Koalisiyasının növbəti Ümumi Yığıncağı keçirildi. Şahmar Mövsümovun, Azay Quliyevin, EİTİ Beynəlxalq katibliyin, Dünya Bankı, ABŞ səfiri başda olmaqla, digər səfirlik və beynəlxalq təşkilat nümayəndələrinin qatıldığı yığıncaqda 143 təşkilat iştirak etdi. Hökumətin tam dəstək verdiyi toplantı onlar üçün 2 çox ciddi məğlubiyyətlə başa çatdı. Birinci, hakimiyyətin Koalisiyanı nəzarətə götürmək üçün irəli sürdüyü "Koalisiyanı İctimai Birliyə çevirib qeydiyyata almaq" planı keçmədi, iflasa uğradı. İkinci isə, bütün müqavimətə, antitəbliğata, ayrılan 400 min manata baxmayaraq, hakimiyyət Şura və Monitorinq Qrupu seçkilərində məğlubiyyətə uğradı. Şuranın 50+1, MQ- nın isə 2/3 tərkibinə bizim təklif etdiyimiz namizədlər seçildi. O cümlədən bəndəniz yüksək səslə Koalisiya Şurasına üzv seçildi. Çox ciddi uğur əldə etdik. Sizlər də daxil olmaqla əməyi keçən, dəstəkçi olan, diqqət yetirən bütün dostlara təşəkkür edirəm. Həftənin birinci günü Bakıda səfərdə olan EİTİ üzrə Beynəlxalq Katibliyin nümayəndəsi, regional direktor Dyveke Roganın yeni Şura ilə görüşü olacaq. Mən həmin görüşdə həbsdə olan Koalisiya üzvləri Asif Yusifli və Fuad Qəhrəmanlının məsələsini, eləcə də VC-nin digər problemlərini qaldıracam".

Statusa yazılmış rəylərdən görünür ki, təmsilçilərinin quruma üzv seçilmələri Milli Şura və AXCP rəhbərliyinin böyük sevincinə səbəb olub. Belə ki, statusa rəy yazanların əksəriyyəti Milli Şura rəhbərləridir ki, onlar Gülalıyevin "qələbə"sini böyük sevinclə qeyd edirlər. Təbrik edənlərdən biri də Asim Karimli adlı feysbuq istifadəçisidir. Bəlli olduğu kimi, bu AXCP sədri Əli Kərimlinin gizli sosial şəbəkə hesabıdır.

Mədən Sənayesində Şəffaflığın Artırılması Koalisiyasının üzvü Mehriban Vəzir qurumda bu barədə müzakirələr aparıldıqdan sonra açıqlama veriləcəyini söylədi.

Koalisiyaya daxil olan qurumlardan İqtisadi Tədqiqatlar Mərkəzi (İTM) İdarə Heyətinin üzvü Qubad İbadoğlu tədbirin təşkili ilə məşğul olmadığını söylədi: "Yığıncağın əvvəlkilərdin fərqi o idi ki, iştirakçı səviyyəsi yüksək idi. 150-yə yaxın Koalisiya üzvü ümumi yığıncağa qatılırdı. Əsas məsələ təşkilatı məsələ idi. Seçkili orqanlar formalaşmalı idi. Siyasi partiya təmsilçilərinin 50%-dən çoxunun üstünlük təşkil etməsi kimi fikirlər doğru deyil. Orada siyasi partiyaları təmsil edən şəxslərin sayı bir neçə nəfərdir. Biz də daim siyasi partiyaların təmsilçiləri olub. Müsavat Partiyasının üzvü olduğum zamanlar mən də qurumda təmsil olunmuşam. Koalisiyada hazırda YAP-ın üzvləri də var. AXCP üzvləri daim orada olublar. Qanun bunu qadağan etmir. Son seçkilərdə seçilənlərin yarısından çoxunun siyasi qurumlara aid olması fikirləri yanlışdır. Onların bir neçəsinin partiya mənsubiyyəti var. Amma böyük əksəriyyəti QHT təmsilçiləridir. Azərbaycanın qurumdan çıxarılması məsələsi tamam başqadır. Bu məsələ çox güman ki, payızda müzakirəyə çıxarılacaq. Çıxarılma məsələsi gündəmdə deyil".

Səslənən iddialarla bağlı Koalisiyaya üzv olan hər kəsin mövqeyini dərc etməyə hazırıq.

**❑ Cavanşir ABBASLI, musavat.com**

## Balaca Kənan ilk dəfə Nərgiz Yaqublu ilə görüşə gəldi

**Müsavatçı fəal, mərhum Nərgiz Yaqublunun oğlu Kənan Bakıdadır. Dünən Kənan anasının məzarını ziyarət edib.**



Musavat.com xəbər verir ki, bu barədə Nərgiz Yaqublunun atası, Müsavat başqanının müavini Tofiq Yaqublu yazıb. O, nəvəsinin məzar başında çəkilmiş fotolarını "Balaca Kənan ilk dəfə Nərgizlə görüşə gəlmişdi" qeydi ilə paylaşıb.

Qeyd edək ki, Kənan dünyaya gəldikdən az sonra anası Nərgiz Yaqublu dünyasını dəyişib.

**❑ Musavat.com**

## Günel Mövlud və Emin Millinin yaxınları azad edildi, bəs Qənimət Zahidinkilər...

### Yazarın iki qardaşı azad olunub; baş redaktorun qardaşı və əmisi oğlu barəsində məhkəmə sonunda müsbət qərar verilə bilər

### **Bəhruz Bayramov:** "Müsbət qərar verilsə..."

### **Mirvari Qəhrəmanlı:** "Qənimət Zahidin yaxınları azad ediləcək..."

**Yazar Günel Mövludun qardaşları Vəkil və Raci İmanovlar barədə seçilmiş həbs qətimkan qərarı dəyişdirilib. Bu barədə yazarın özü feysbuq səhifəsində məlumat yayıb. Məlumata görə, İmanovlar cəzalarının bir hissəsini çəkdiklərinə görə barələrində belə qərar verilib.**



Qeyd edək ki, Günel Mövludun qardaşlarına qarşı Cinayət Məcəlləsinin 234-cü ( narkotik ittihamı) maddəsi kimi ağır ittiham irəli sürülmüşdü. Bundan öncə bu ittihamla həbs edilən Meydan.Tv-nin direktoru Emin Millinin qaynı Nazim Ağabəyov barəsində də buna uyğun qərar verilmişdi. Belə ki, o, 3 il müddətində azadlıqdan məhrum edilmiş, cəzası şərti olaraq verilmiş və Ağabəyov məhkəmə zalından azadlığa buraxılmışdı.

Hazırda xaricdə mühacir həyatı yaşayan şəxslərdən "Azadlıq" qəzetinin baş redaktoru Qənimət Zahidin qardaşı oğlu Rüfət Zahidov və əmisi oğlu Rövşən Zahidov həbsdədir. Günel Mövludun qardaşları və Emin Millinin qaynının azad edilməsindən sonra Q.Zahidin də qohumları barəsində belə qərar veriləcəyi barədə xəbərlər yayılıb. Hazırda məhkəmə prosesləri gedən Zahidovların sonda azad ediləcəklərinə ümidlər artıb.

Rüfət Zahidovun vəkili Bəhruz Bayramov "Yeni Müsavat"a açıqlamasında Zahidovların məhkəmənin sonunda azadlığa buraxılacaqlarına inamlarının artdığını söylədi: "Bu şəxslərin heç bir siyasi fəaliyyətləri olmayıb. Qənimət Zahidlə bunların heç bir əlaqələri belə yoxdur. Onların azad olunacaqlarına inanmaq istərdim. Ailə şəraitləri çox ağırdır. Rüfətin azyaşlı övladı və xəstə atası var. Ailədə işləyən yeganə şəxs bu idi. Onun həbsə atılması ailənin maddi və mənəvi durumunu ağırlaşdırıb. Hazırda onların məhkəmə prosesləri davam edir. Prosesin sonunda müsbət qərar verilsə, çox sevinərəm".

Hüquq müdafiəçisi Mirvari Qəhrəmanlı dünyanın heç bir yerində girovluqdan istifadə edilmədiyini qeyd etdi: "Belə situasiyaları mən də yaşamışam. Bilirəm ki, qohumlar nə çəkirlər. Sanki hakimiyyətdə elə qollar var ki, bir hadisə baş verən kimi bir şəxsin qohumlarından istifadə edirlər. Hansısa bir suçlunun qohumu neyləsin ki, onun qohumudur. Axı bu Zahidovların nə günahı var? Kənd yerlərində yaşayırlar və siyasətdən tamam uzaqdırlar. Hökumət artıq bu sahədə uğurlu siyasət aparmağa başlayıb. Son əfvdə hiss olunur ki, belə qisas alma hallarına son qoyulur. Bunu hökumət deyil, hüquq mühafizə orqanlarının apardığı siyasət adlandırıram. Xaricdə yaşayıb hökuməti tənqid edən bir şəxsə qarşı daha yumşaq siyasət aparmaq lazımdır. Ümid edirəm ki, gələcəkdə qisas almaya qarşı da sərəncam veriləcək. Belə siyasət yürüdən hüquq mühafizə orqanlarının özləri vəzifələrindən azad olunacaqlar. Belə siyasət Azərbaycanın nüfuzuna ciddi zərər gətirir. Məhkəmənin sonunda Zahidovlar azad oluna bilərlər. Çünki bu fakt bütün beynəlxalq təşkilatların qarşısına qoyulub. Azərbaycanın sadə vətəndaşlarına qarşı beynəlxalq aləmdə mənfi imic formalaşır. Onlar getdikcə, ya xuliqan, ya da narkoman kimi tanınacaq. Erməni jurnalistlərin də əllərinə bəhanə verilir. Düşünürəm ki, Qənimət Zahidin yaxınları azad ediləcək və belə siyasətə də son qoyulacaq".

**❑ Cavanşir ABBASLI**

## Küsülü siyasilər ermənıyə qarşı eyni cəbhədə döyüşərmi?

**Araz Əlizadə:** "Müxalifətçi, müsavatçı, cəbhəçi, Akif Nağı kimilər məni arxadan vurar"

**Akif Nağı:** "İnanmadığın adamla döyüşə girmək axmaqlıq olar"

**Qubad İbadoğlu:** "Qarabağın uğrunda hər kəslə döyüşlərdə iştirak etməyə hazıram"



**Ötən ayın əvvəlində cəbhədə gedən dörd günlük döyüşlər zamanı ictimaiyyətdə, mətbuatda, sosial şəbəkələrdə bir həmrəylik, müttəfiqlik hiss olundu. Hətta bir-birinə zidd qüvvələr, siyasilər birlik nümayiş etdirdilər. Doğrudur, cəbhədə vəziyyət bir qədər sabitləşən kimi siyasətçilər arasında "atəşkəs" yenidən pozuldu.**

Bəs görəsən səfərbərlik elan olunarsa, bir-biri ilə küsülü olan siyasilər eyni cəbhədə döyüşərmi? Məsələ ilə əlaqədar küsülü olan bir neçə siyasətçilərin mövqeyini öyrənməyə çalışdıq.

Bu günlərdə Dövlət Himnimiz barəsində səsləndirdiyi fikirlərinə görə QAT sədri Akif Nağı ilə aralarında söz davası yaranan deputat Araz Əlizadə sualımıza bu cür mövqe bildirdi: "Müharibə olarsa, yaşımın çox olmasına baxmayaraq döyüşməyə gedəcəm. Mütləq, oğlum da gedəcək müharibəyə... Çiyin-çiyinə isə müxalifətdən, müsavatçılardan, cəbhəçilərdən olan, Akif Nağı kimiləri ilə döyüşə bilmərəm. Onlar əgər məndən azacıq arxada olsalar mütləq arxadan vuracaqlar. Artıq biz bu təcrübəni görmüşük. Bizdən bir milli qəhrəman var idi - partiyamızın üzvü Rövşən Hüseynov. O vaxt Mingəçevir cəbhəçilərinin dəstəsi mühasirəyə düşəndə Rövşən Hüseynov onları xilas etməyə gedir. Onlar guya söz vermişdilər ki, artilleriya atəşinə kömək edəcəklər. Cəbhəçiləri mühasirədən çıxartdılar, lakin artilleriya zərbələri olmadı və özləri mühasirəyə düşərək həlak oldular. Artıq bilirəm ki, bu insanlara inanmaq olmaz".

QAT sədri Akif Nağı isə etibarı olmayan, inanmadığın insanla döyüşdə iştirak etməyin axmaqlıq olduğunu dedi: "Müharibə başlayarsa, mən də razıyam ki, siyasi əqidəsindən, yönümündən asılı olmayaraq hər kəs müharibənin tələblərinə uyğun səfərbər olmalıdır. Təbii ki, heç kəs özbaşına gedib müharibədə iştirak edə bilməz. Bununla bağlı dövlət qurumları, səfərbərlik, hərbi Müdafiə Nazirliyi var. Onlar hər kəsi öz yerinə, öz imkanlarına uyğun səfərbərlik etməlidir. Yəni hər kəs öz düşüncəsini tərif etməlidir. Kütləvi şəkildə hər kəsin öz istədiyi yerdə vuruşması mümkün deyil. Müharibənin belə bir qaydası var, "filankəslə kəşfiyyata gedərəm və ya getmərəm". Yəni bu, etibarlılıq elementidir. Müharibə üçün bu çox vacib şərtdir. Ona görə də kimlərisə hansısa cəhətlərinə görə tanıyırıqsa, münasibətlərimiz gərgindirsə, təbii ki, o adam və ya adamlarla bir yerdə döyüşə getmək məqsədə uyğun olmazdı. Mən belə hesab edirəm. Bu müəyyən təhlükələr yarada bilər. Müharibədə ağır bir məsələdir. Ola bilsin kənardan baxanlara asan gəlir. Orda insanların xarakteri yoxlanılır, ən müxtəlif situasiyalarla rastlaşırsan. Kimisi vuruşur, kimisi qaçır. Sənin arxanca gələn adam etibarlı adam olmalıdır. Belə deyilsə, ona inanmırsansa, onunla döyüşə girmək mən hesab edirəm ki, ən azı axmaqlıq olar".

Bir müddət bundan əvvəl Müsavat Partiyasından çıxarılan, ADR Hərəkatını yaradan Qubar İbadoğlu isə Qarabağın azadlığı uğrunda hər kəslə cəbhədə iştirak etməyə hazır olduğunu dedi: "Söhbət Azərbaycan torpaqlarının azadlığı uğrunda mübarizədən gedir. Ön cəbhədə, arxa cəbhədə, bir sözlə harada lazımdırsa orda vuruşmağa hazırıq. Əsas hədəf odur ki, cəbhədə düşmənlərə qarşı döyüşək. Orda kimlərdən bizimlə bərabər məqsəd, hədəf üçün döyüşməyə hazırdırsa onlarla bərabər döyüşlərdə iştirak etməyə hazıram. Əsas odur ki, Qarabağın azadlığı üçün vuruşaq və onun azad olunmasına nail olaq".

❑ **Xalidə Gəray**

---

**Ölkədə birinci kəskin devalvasiyadan ildən artıq vaxt ötsə də, hökumət dollar kreditləri ilə bağlı problemi çözməyə çalışmır. Dəfələrlə hökumət nümayəndələri məsələ ilə əlaqədar vətəndaşlara güzəşt edilməyəcəyi barədə fikirləri müxtəlif formalarda səsləndiriblər. Hətta yeni yaradılan Maliyyə Bazarlarına Nəzarət Palatasının rəhbəri də kreditlərdə güzəşt olmayacağını vurğulayıb. Ancaq artıq Milli Məclis dollar kreditləri ilə bağlı yeni təkliflər hazırlayır.**



# Problemli kreditlər yenidən gündəmdə - "buz tərpənib", ancaq...

## Məsələdə, nəhayət, optimal çıxış yolu tapılacaqmı? Ekspertlərin fikirləri birmənalı deyil...

Milli Məclisin üzvü Vahid Əhmədov təklifin nədən ibarət olacağı barədə ictimaiyyətə məlumat verilmədiyini bildirib. O, həmçinin qeyd edib ki, layihə Milli Məclisə təqdim edildikdən sonra detallar açıqlanacaq: "Hazırda dollar kreditlərinin qaytarılması ilə bağlı təkliflər hazırlayırıq".

Deputat Əli Məsimli isə bildirib ki, məsələyə sistemli yanaşmağa çalışıblar: "Dollar kreditlərinin qaytarılması ilə bağlı bütün yükü əhalinin üzərinə atmaq problemi çətinləşdirmək deməkdir. Təklif edirik ki, burada dövlət qurumları ilə bankların maraqları balanslaşdırılsın. Bir hissəsini banklar, bir hissəsini dövlət qurumları, bir hissəsini dollarla kredit götürən vətəndaşlar, bir hissəsini də Mərkəzi Bank üzərinə götürsün". Ekspertin sözlərinə görə, dolların məzənnəsinin gələcək aqibəti də dumanlıdır.

Ekspert Əkrəm Həsənov da qanun layihəsi barədə tam məlumatı olmadığını dedi: "Eşitdiklərimə əsasən, həmin layihə bundan sonra veriləcək kreditlərə aiddir. Kreditin verilməsinə məhdudiyyətlər qoyur. Yəni ümumiyyətlə əhaliyə dollarla istehlak kreditlərinin verilməsinə məhdudiyyətlər qoyur. Yəni istənilən halda bu, müsbət addımdır, amma gələcəyə aiddir, indiyə qədər verilən kreditlərə aid deyil. Biz artıq dəfələrlə şahidi olmuşuq ki, hökumət rəsmiləri nümayəndələri güzəştin olmayacağını deyiblər. Əgər hökumət deyirsə ki, belə bir güzəşt olmayacaq, deməli, bunun üçün pul yoxdur. Pul yoxdursa, parlament tərəfindən belə qanunun qəbul edilməsi gözlənilmir".

İqtisadçı-ekspert Natiq Cəfərli isə qeyd etdi ki, əslində hökumət dollar kreditlərinə çox səhv yanaşıb: "Həm hökumət, həm Mərkəzi Bank bütün problemi kredit götürən vətəndaşların və bankaların üstünə atdı, özünü kənara çəkdi. Bütün kəskin devalvasiya olan ölkələrdə, məsələn, Rusiyada, Qazaxıstanda kreditlərlə bağlı müəyyən addımlar atıldı. Azərbaycanda bu olmadı, zamana buraxıldı. Buradan məlum oldu ki, çox səhv yanaşmadır. Çünki problemli kreditlərin həcmi kəskin artıb. Çox böyük sürətlə geri qaytarılmayan kreditlər artır. Bu, artıq o məqama çatıb ki, həm hökumət, həm Mərkəzi Bank da vəziyyətin ciddiliyini anlayır. Hökumət anlayır ki, belə davam etsə, bank sektorunda çox ciddi çöküş yaşanacaq. Çünki bəzi banklarda problemli kreditlərin həcmi 80 faizi keçib, böyük bir rəqəmdir. Ümumi ölkə üzrə götürdükdə, son bir il ərzində problemli kreditlərin həcmi iki dəfədən çox artıb. O biri tərəfdən, düşünürəm ki, müəyyən gecikmələr də olsa, bu, problemin həllində hökumət və Mərkəzi Bank müəyyən addımlar atmağa düşünür. Burada həmin o güzəştlərin mənbəyi, maliyyələşmə mənbəyi hələ də bilinmir. Müxtəlif fikirlər səslənir. Bir çox ekspertlər bunun Mərkəzi Bank tərəfindən həyata keçirilməsinin doğru olduğunu bildirirlər. Başqa qisim ekspertlər isə bunu üç yerə bölməyi təklif edirlər. Həm vətəndaş, bank və Mərkəzi Bank arasında bölünməsini təklid edirlər. Amma əgər maliyyələşmə mənbələri tapılmasa, bu qanun qəbul olunsa belə, kağız üzərində qalacaq. Bu sektora bir xeyri olmayacaq. Ümid edirəm ki, heç olmasa bir ildən çox gecikmə ilə də olsa, hökumət, Mərkəzi Bank və parlament bir ortaq məxrəcə gələrək müəyyən bir uğurlu qanun layihəsi qəbul edəcəklər. Bunun yolları da var. Hökumət də anlamalıdır. Banklar da anlamalıdır ki, əgər bütün yük vətəndaşın üzərində qalsa, kredit geri qayıtmayacaq, ödənilməyəcək. Onsuz da vətəndaş işini itirir, iş yerləri azalır, müəssisələr qapanır, qaytarıla bilməyəcək kreditlərin həcmi kəskin artacaq, banklar çökəcək. Banklar da batsa, bütün iqtisadiyyata çox cidid mənfi təsir göstərəcək".

Ekspert Vüqar Bayramov isə bildirdi ki, Mərkəzi Bankdan sonra Maliyyə Bazarlarına Nəzarət Palatası da dollar ilə kredit götürənlərə "bəd xəbər" verib - kompensasiya gözlənilmir: "Hal-hazırda kreditlərin məbləğinin 19,7 milyard manat olduğunu və ümumi kredit portfelində xarici valyutaların payını nəzərə alsaq söhbət ikinci devalvasiyadan sonra yaranan 3,5 milyard manatlıq fərqdən gedir. Həm Mərkəzi Bank, həm Palata bu fərqin banklar ilə vətəndaşlar tərəfindən qarşılacağını güman edir. Banklar heç bir güzəştə getmək istəmir və praktik olaraq getmirlər. Müştərilərin heç də hamısı isə belə böyük fərqi qarşılamaq imkanlarına malik deyil. Nəzərə almaq lazımdır ki, 2015-ci ilin il əvvəlində10 min dollar kredit götürən şəxsə bank 7800 manat veribsə indi əsas məbləğ faizlər hesablanmadan 15 min manat olub. 10 min dollarlıq kredit üzrə yalnız əsas məbləğdə 7200 manat fərq var. Deməli, il yarım öncə 7800 manat kredit götürən şəxs faizlər ilə birlikdə banka 20 min manatdan çox pul ödəməlidir. Dövlətin dəstəyi olmadan bu kreditlərin qaytarılacağı inandırıcı görünmür",- deyə o, qeyd elədi.

Onun da qeyd edək ki, Maliyyə Bazarlarına Nəzarət Palatasının xarici valyutada istehlak kreditlərinin verilməsinin dayandırılmasına dair əlavə məlumat yayıb. Palatadan verilən məlumata görə, qurumun Direktorlar Şurasının iclasının qərarı ilə 5 aprel 2016-cı il tarixdən etibarən Azərbaycanda fəaliyyət göstərən bütün kredit təşkilatları tərəfindən xarici valyutada istehlak kreditlərinin verilməsi bir ay müddətinə dayandırılıb. Bundan başqa, Palatanın məlumatına görə, bu qadağanın qüvvədə olduğu müddətdə dollar kreditlərinin şərtləri də dəyişdirilə bilməz: "Bu növ kreditlərin restrukturizasiya edilməsi, yeni müqavilə şərtlərinin dəyişdirilməsi və ya yeni öhdəlik kimi rəsmiləşdirilməsi qadağanın əhatə dairəsindədir".

❑ **Röya RƏFİYEVA**

YENİ MÜSAVAT
N 94 (6415) 2 may 2016

## Vaşinqtondan “Yaxın xaric”də Rusiyanı zəiflədəcək plan




# ABŞ Kremlə qarşı antiişğal qanunu hazırlayır - Azərbaycan da uduşda

Konqresdə qeydiyyatdan keçən sənəd Krım və digər ərazilərin işğalını qanunsuz elan edir, Moskvaya qarşı sanksiyaları gücləndirməyi nəzərdə tutur; sanksiyalardan forpost Ermənistana da pay düşəcək, çünki...

**Qarabağ konfliktinin həllində Rusiyanın fəallıq göstərməsi ABŞ-ın passivliyi və guya onun Moskva ilə gizli anlaşması haqda rəy formalaşdırıb. Lakin bir çox müşahidəçilərə görə, bu, ilk baxışda belədir. Hesab edilir ki, Qərb, ABŞ hələlik gözləmə mövqeyindədir və Rusiyanın sülh təşəbbüsü nəticə versə, o zaman lazımi məqamda müdaxilə edəcək. Əslində isə istər Dağlıq Qarabağ problemi olsun, istərsə də Ukrayna, Suriya kimi digər böhranlı məsələlər, bu iki güc mərkəzi bir-birinə gizli-açıq rəqabətdədir.**

Bu da təzə fakt: ABŞ Konqresində Rusiya əleyhinə “Akt STAND” adlı yeni qanun layihəsi qeydiyyatdan keçib. “Amerikanın səsi” radiosunun Ukrayna bölümünün məlumatına görə, sənəd Rusiya tərəfindən Krımın qanunsuz ilhaqı, bütövlükdə postsovet məkanında Rusiya işğalları və Kremlə qarşı sanksiyaların gücləndirilməsi, habelə Ukraynaya əlavə iqtisadi-maliyyə və innovativ kömək barədədir.

Qanun layihəsinin müəllifləri hesab edirlər ki, Rusiyanın Ukraynaya qarşı təcavüzü sonuncunun suverenliyini sarsıdıb, eyni zamanda ABŞ-ın bütöv, azad və dinc Avropaya uzunmüddətli sərmayələrinə təhlükə yaradıb. “Krımın ilhaqı - qanunsuzdur. Bu məsələdə Amerika siyasəti ifrat dərəcədə dəqiq olmalıdır, necə ki, Sovet İttifaqının üç Baltikyanı ölkənin çoxillik ilhaqı zamanı belə bir mövqe tutmuşdu. Biz aydın işarə verməliyik ki, ABŞ Putinin öz qonşularını qorxutmasına, NATO-nun vahidliyini sınaqdan çıxarmasına və Qərb ölkələrinin birliyini sarsıtmaq səylərinə seyrçi qalmayacaq” - qanun müəlliflərindən olan konqresmen Eliot Engel bildirib.

Sənəd müəlliflərindən digəri - konqresmen Adam Kinzinqer isə deyib: “Vaxtı çatıb ki, ABŞ təsdiq eləsin ki, biz Rusiya təcavüzünə loyal qalmayacaq, Krımın Rusiya tərəfindən ilhaqını heç vaxt qəbul etməyəcəyik”.

Qeyd edək ki, “Akt STAND” Rusiyaya qarşı sanksiyaların gücləndirilməsini ehtiva edir və

> **"Putin öz qonşularını qorxudur" ifadəsi yüzdə yüz Qərbin, ABŞ-ın bölgədəki əsas enerji tərəfdaşı Azərbaycan sarıdan da narahatlığının ifadəsidir"**

Moskvanın Krım üzərində hakimiyyətinin hər hansı formada tanınmasını rədd edir. Bundan əlavə, Ukraynanın özünümüdafiə hüququnu müəyyən edir və sanksiyaların yumşaldılmasını Minsk anlaşmasının vaxtında və tam yerinə yetirilməsi ilə əlaqələndirir. Xüsusi vurğulanır ki, yalnız Krım Ukraynanın tərkibinə qaytarıldıqdan sonra sanksiyalar tam aradan qaldırıla bilər.

Qanun həmçinin, Moskva Ukraynada ilhaqa son qoymayanadək NATO-ya üzv ölkələr tərəfindən Rusiyaya Amerika texnologiyaları və komponentləri olan hərbi təyinatlı predmet və xidmətlərin ötürülməsinə qadağa qoyur, “Maqnitski qanunu”nun təsirini Rusiyanın işğal elədiyi və ya nəzarətdə saxladığı Krım, Abxaziya, Cənubi Osetiya, Dnestryanı bölgə kimi ərazilərə yaymağı nəzərə tutur. Bundan başqa, Ukraynaya əlavə maliyyə-investisiya köməyi üçün yollar təklif edir, Dövlət Departamentinə isə tapşırır ki, Rusiyanın dezinformasiya səylərinə və təbliğatına qarşı strategiya işləyib həyata keçirsin.

***

Sözügedən sənəd şübhə yox ki, Azərbaycanın da ciddi faydasınadır. Çünki Azərbaycan da postsovet ölkəsi və Ukrayna kimi işğaldan əziyyət çəkir, onunla oxşar taleyi yaşayır.

Bizim də ərazi bütövlüyümüz illərdir Rusiyanın forpostu Ermənistan tərəfindən pozulub, torpaqlarımızın 20%-i işğal altındadır - hansı işğala ki, dünya, o cümlədən ABŞ apreldəki 4 günlük savaş zamanı bir daha əminlik hasil elədi.

Məsələ də ondadır ki, keçmiş SSRİ məkanında hazırda iki işğalçı dövlət mövcuddur - Rusiya və Ermənistan və onlar bir-biri ilə üstəlik, müttəfiqdirlər. Belədirsə, onlardan birinin zəifləməsi məntiqi olaraq, digərinin də zəifləməsinə gətirməlidir. Odur ki, yeni anti-işğal sənədinin birbaşa və dolayısıyla Azərbaycana, onun ərazi bütövlüyünə də dəxli var.

Bu qanun ölkəmizin də ərazi bütövlüyü məsələsinin ABŞ üçün önəmini artırmış olacaq, onu diqqət mərkəzinə gətirəcək. Hər necə olmasa, postsovet ölkələrinə, işğal məsələsində yanaşmada ABŞ ikili yanaşmadan çıxış edə bilməz.

***

Doğrudur, qanun layihəsində bilavasitə Azərbaycanın və Dağlıq Qarabağın adı çəkilmir, çünki orada ilk növbədə Rusiyanın ilhaq elədiyi Krımdan, Abxaziya və Cənubi Osetiyadan, Dnestryanı bölgədən danışılır - hansı regionlar ki, birbaşa Rusiyanın işğalına məruz qalıb. Amma amerikanlar bilməmiş deyillər ki, Azərbaycan əraziləri də məhz Rusiyanın köməyi ilə işğal olunub. Başqa yandan, “Putin öz qonşularını qorxudur” ifadəsi yüzdə yüz Qərbin, ABŞ-ın bölgədəki əsas enerji tərəfdaşı Azərbaycan sarıdan da narahatlığının ifadəsidir.

Qanunun Azərbaycan üçün önəmi həmçinin, ondadır ki, sənəd işğalçı Ermənistanın əsas müttəfiqi Rusiyanı bir az da zəiflədəcək, onun iqtisadi çöküşünü sürətləndirmiş olacaq. İqtisad-maliyyə durumu ağır olan Rusiya isə Ermənistana əvvəlki kimi nə maliyyə-iqtisadi dəstəyi göstərmək imkanında olacaq, nə də əvvəlki illərdəki kimi, ona ucuz qiymətə və ya havayı silah sata biləcək.

Moskva hələ heç ötən il İrəvana vəd elədiyi 200 milyon dollarlıq krediti verə bilmir ki, sonuncu elə həmin məbləğə Rusiyanın özündən silah-sursat ala bilsin. Bundan ötrü Ermənistanın baş naziri Ovik Abramyan və müdafiə naziri Seyran Ohanyan 4 günlük müharibədən dərhal sonra bir neçə günlük fasilə ilə şəxsən Moskvada olsalar da, nəticə yoxdur.

Yeni sanksiyalar isə şübhəsiz ki, Rusiyanın iqtisadi-maliyyə göstəricilərini bir az da ağırlaşdıracaq. Bu isə avtomatik şəkildə Moskvanın gözündə Azərbaycan kimi etibarlı və sərfəli silah alıcılarının önəmini qaldırmış olacaq. Paralel surətdə Ermənistanın önəmi azalacaq. Onsuz da 4 günlük savaşdan sonra Rusiya-Ermənistan münasibətlərində müəyyən soyuqluq yaranıb. Deməli, İrəvan-Moskva münasibətlərində yaranmış çat daha da dərinləşəcək ki, bu da sözsüz ki, Bakının maraqlarına uyğundur.

Birincisi, ona görə ki, o halda ərazilərimizin güc yolu ilə azad edilməsi üçün daha məqbul şərtlər yetişə bilər. Konqresdə qəbulu gözlənilən antiişğal sənədi bu yöndə bizə əlavə stimul yaradır. İkincisi, zəifləmiş Rusiya Qarabağ nizamlanmasını özünün monopoliyasına ala, Azərbaycana istədiyi sülh modelini sırıya bilməyəcək - bir şərtlə ki, rəsmi Bakı da yeni şərait və şərtlərdən bacarıqla istifadə eləsin.

❑ **Analitik xidmət**

## Zakir Həsənov Ramazottinin konsertinə niyə getmədi?



**Elşad PAŞASOY**
epashasoy@yahoo.com

**Müdafiə nazirinin qol saatını çıxarıb səngərdəki əsgərinə hədiyyə eləməsi əhvalatı yadınızdadırmı? Keçən may həmkarlarımızla Nərgiztəpə tərəfdə, Xocavəndin 15 km-liyində düşmənlə göz-gözə dayanmış əsgər və zabitlərimizlə görüşdə də bu əhvalatı xatırlamışdıq. Onda əsgərlər nazir haqqında elə məhəbbətlə danışırdılar ki...**

Əslində general-polkovnik Zakir Həsənov haqqında deyilən xoş sözləri haqq edib. Ən mühümü bu idi ki, kabinet naziri olmadı, onu daha çox səngərdə, əsgər və zabitlərin arasında gördük. Yaxşı əsgər də generala bənzəmək istər. Odur ki, Azərbaycan əsgəri öz “kabinet” - səngərindən çıxıb düşmənin üstünə cummaq üçün çoxdan əmr almaq həsrətindəydi. Nazir əsgərə valideyn qayğısı göstərəndə, onunla çörək kəsəndə, şəhid anasının əlindən öpəndə təbii əsgər də Ana Vətən üçün hər an şərəfli ölümü seçməyə hazır olacaqdı...

Fakt budur ki, müdafiə naziri və rəhbərlik etdiyi qurum Ali Baş Komandanın əmrini sözsüz, özü də şərəflə yerinə yetirir. Məhz bunun nəticəsidir ki, artıq dörd günlük döyüşdən sonra bizlər istər daxildə, istərsə xaricdə Qarabağdan söhbət düşəndə aciz duruma düşmür, söhbətdən qaçmağa çalışmırıq. O gün professor Firudin Cəlilov Türkiyə televiziyasına deyirdi ki, aprel döyüşlərinə qədər xaricdə Qarabağın işğalına görə utanırmış...

Politoloq Elxan Mehdiyev danışır ki, Türkiyədəki tədbirlərin birində iştirak edən erməni ekspert onun Qubadlıdan olduğunu bildiyi üçün tez-tez söz atırmış, Qubadlıda kənd salmalarından, orada əkin əkmələrindən danışırmış. Etiraf etmişdi ki, çox ağır anlar yaşayıb o an. Ermənilər artıq məsələni bitmiş sayırdılar, dünya da hesab edirdi ki, Azərbaycan reallıqla razılaşmalıdır. Əsgərimiz onları peşman elədi...

Ancaq sakitləşmək olmaz. Əksinə, Rusiyanın başının qarışması, ermənilərin bir-biri ilə didişdiyi, anlaqsız hala düşdüyü bu vəziyyətdən maksimum yararlanmaq lazımdır. Bu mənada gərək Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov italyan müğənni Eros Ramazzottinin konsertinə getməsinə görə ünvanına səslənən tənqidləri anlayışla qarşılasın.

Bəlkə elə Zakir Həsənov da Ramazzottinin mahnılarının həvəskarıdır. Ancaq Məmmədyarovdan fərqli olaraq o, konsertə getməmişdi, həmin gün səngərdə, əsgərinin yanındaydı. Konsertə ayrı vaxtda da getmək olar, lap Romanın özünə. Amma bu gün vəziyyət konsertlik deyil. Hərəmiz üzərimizə düşəni etsək, Ramazzotti bir gün gəlib Şuşada konsert verəcək. Azərbaycanın musiqi beşiyində, Üzeyir yurdunda...

Ermənistan ordusu Azərbaycandan qisas almaq üçün fürsət gəzir, özü də təkcə əsgərdən yox, həm də mülki şəxslərdən. Düşmən o qədər azğınlaşıb ki, evlərə mərmi yağdırır, heyvanları belə öldürür. Gərək cənab Məmmədyarov Bakıya gəlmiş diplomatların bir qrupunu götürüb cəbhə bölgəsinə aparaydı, bəlkə elə Ramazzottinin özünü də. Qoy bu dəfə dünyanın məşhur sənətçisi Qarabağın işğalından, erməni vandalizmindən danışaydı. Mən inanmıram ki, sənət adamı Tərtərdə, Ağdamda, Gədəbəydə, Ağcabədidə dağılan evləri, məktəbləri, güllələnən dinc sakinləri görüb laqeyd qalaydı. Azərbaycan həqiqətlərini həm də musiqi(çi)nin dili ilə dünyaya yaymaq şansını qaçırdıq, təəssüf.

BMT-nin baş katibi Pan Gi Mun bəhanə tapıb Bakıya gəlmədi. Ancaq onun Ermənistanla Azərbaycan arasında bərabərlik işarəsi qoyub hər iki ölkənin prezidentinə üzrxahlıq zəngini etməsi anlaşılan deyildi. Pan Gi Mun gəlsə də, gəlməsə də, BMT Təhlükəsizlik Şurasının 23 ildir icra olunmayan qətnamələrinə tüpürdüyünə görə Sərkisyanın üzünə tüpürməliydi. O, Bakıya gəlmədisə, zəhmət çəkib cənab Məmmədyarov BMT-nin mənzil qərargahının qapısını kəsdirməli, qurumun fövqəladə iclasının çağırılmasını tələb etməli(y)di. İşğalçı ölkə bizim ərazilərimizdən bizi atəşə tutur, insanlarımız həlak olur, milyonlarla dollarlıq ziyan dəyir, ancaq Gi Mun susur. Niyə? Elmar Məmmədyarov bunun cavabını kəlbətinlə də olsa, almağa borcludur.

Ordumuzun aprel uğurları cənab Məmmədyarova diplomatik cəbhədə yüksəklikləri almaq fürsəti verib. Gərək o, bir gün də olsa, boş oturmasın, fürsəti dəyərləndirsin. Hər gün Azərbaycana dəstək qazandıran mövqelər alsın. Dünyanın susmağı bizim xeyrimizə olmaya da bilər.

Həmçinin hüquq mühafizə orqanları insan itkilərinə, maddi və mənəvi zərərə görə gecikmədən müvafiq prosedurlardan keçən şikayətləri beynəlxalq səviyyəyə çıxartmalıdır. Hiyləgər düşmən bu dəfə də bizi qabaqlamaq istəyir.



# Videolentdə gönüaçıq görünməyin bədəli

**Samir SARI**

**Yadınızdadırsa, ötən həftə 26 yaşlı bir gədəni azyaşlı qızı şantaj etdiyinə görə tutmuşdular. Şantaj predmeti də nəymiş? Bir neçə adi şəkil.**

Əvvəlcə adama qəribə gəlirdi: məgər adi şəkillərlə kimisə şantaj etmək olar? Bir şey ki, sosial şəbəkə səhifələri, Google o şəkillərlə doludur, hamıya da açıqdır. Ancaq yox, məsələnin incə tərəfləri var. Qız "bu şəkilləri atamgil görsələr, məni öldürərlər" deyibsə, demək, artıq şantaj predmeti əmələ gəlib.

Elə tutulan gədə də azyaşlı qızın patoloji qorxusunu özü üçün daimi sərvət qaynağı sayaraq şantaja başlayıb. Ancaq qızın ağıllı tərpənib olayı valideynlərinə bildirməsi ilə iş tamama yetib. Valideynlər o şəkillərə görə qızı öldürməyiblər, ara yerdə gənc şantajçını tutdurublar.

İndi o gəncin halı necə olacaq? Mütəxəssislər deyir, heç zad, azyaşlı qıza qarşı yol verdiyi alçaqlığa görə onu türmədə tutub alçaldacaqlar. Yəni... təfərrüata gərək yoxdur, belə haqq-hesabları hamınız bilirsiniz.

Ancaq bir məsələ də var: vaxtında ifşa olunan şantajçı gələcəkdə hüquq-mühafizə orqanının zabiti, daha dəqiqi, Hacı Məmmədov və Akif Çovdarov ola, daha böyük şantajlarla məşğul ola bilməyəcək.

Bir var, bir qızı iki şəkillə 250 manat üçün şantaj edib ilişələr, bir də var, yekə-yekə kişiləri, əkə-bükə dövlət məmurlarını videolarla şantaj edələr, tələb olunan pulu alalar və ilişməyələr, axırda işin üstü təsadüfən açıla.

Xatırlarsınız, on il öncə bu vaxtlar ölkə Hacı Məmmədovun şantajına məruz qalanlardan danışırdı. Deyirdilər, milli qanqsterimiz "Qarabulaq" istirahət mərkəzində stasionar studiya qurubmuş, buraya istirahətə gələn məmurların kinosunu çəkirmiş və filmoteka düzəldirmiş.

Deyilənlər həqiqətə oxşayırdı. Çoxları narahat idi. Ancaq təəssüf ki, o işin yaradıcılıq tərəfi ictimaiyyətə açıqlanmadı. Yəni biz Hacı Məmmədovun törətdiyi qətllərdən, adam oğurluqlarından xəbər tutduq, amma bədii yaradıcılığından, rejissorluğunun şah əsərlərindən xəbərsiz qaldıq. Heç onu da bilmədik ki, sənətkarın kastinqindən keçərək "pornoaktyor" seçilmiş məmurlar kimlər olub, onlar istirahət mərkəzinə kimlərlə gəliblər, Hacı onları şantaj edəndə nə qədər veriblər.

Bunları bilməyimiz çox maraqlı olardı. Elə olsa, bəlkə də indi telekanalların efirində müxtəlif verilişlərdə eyzən ağbirçək-ağbirçək danışıb xalqa əxlaq, mənəviyyat dərsi keçən bəzilərinin danışmağa dili olmazdı, çox özlərindən çıxanda bircə kəlmə "sizin Qarabulaqda çəkildiyiniz filmi görmüşəm" demək susmalarına kifayət edərdi.

İndi deyirlər, şantaj estafetini Hacı Məmmədovdan MTN generalı Akif Çovdarovu alıb. İntəhası, o, bir az acgözlük edib, 5-10 dəqiqəlik filmə görə 3-5 milyon tələb edirmiş.

Göründüyü kimi, maestro Çovdarov öz əməyini çox yüksək qiymətləndirib. MTRŞ 3 milyona yeddi-səkkiz dənə serial çəkdirir, amma bu 5-10 dəqiqəlik lentə görə dünyanın parasını istəyirmiş.

Əlbəttə, ərsəyə gətirilən sənət əsərinin, serialların gənc nəslin təlim-tərbiyəsinə, hərbi-vətənpərvərlik ovqatının yüksəlməsinə təsiri nəzərə alınırsa, 10 dəqiqəlik lentin də şantaj olunan məmurun karyerasına təsirini nəzərə almaq lazımdır. Adam o 10 dəqiqəlik lentə görə 10 milyonluq sərvətdən məhrum olacaqsa, demək, tələb olunan 3 milyonu düzəldib verəcək.

Bəs o videolarda nə ola bilər? Bunu yalnız analitik təfəkkürdən yararlanmaqla təxmin eləmək olar. Birinci versiya dövlətçiliyə, rəhbərliyə xəyanətə dairdir, amma bizim məmurlar elə şey eləməzlər. Onlar dövlətçiliyin ətrafında sıx birləşiblər və bilirlər ki, var-dövlət yığmaq üçün onu yaxşı dəstəkləməlidirlər.

Amma şantaj olunma üçün ən ağlabatan səbəb adamın şalvarsız çəkildiyi videogörüntülər ola bilər. Bax, bu, çox inandırıcıdır. Çünki əyninə şalvar geyənlərin tam əksəriyyətinin onu istirahət mərkəzlərində çıxarmaq kimi zəiflikləri, vərdişləri var. Bu baxımdan düşünmək olar ki, şantaj olunanlar o cür mərkəzlərdə gözüaçıq olmayan, gönüaçıq olanlardır. Lentdə gönün göründüzə, qanın getdi, get say milyonları.

Bəs bir məmurun hansısa istirahət mərkəzində şalvarsız halda videolentə çəkilməsinin milli təhlükəsizliklə nə kimi əlaqəsi ola bilər? Bax, bu suala gərək orqanlar cavab versin.

**Türkiyə ABŞ, İsrail, Çin, İran və Cənubi Afrikadan sonra dünyada silahlı pilotsuz təyyarə istehsal edən 6-cı ölkə statusu qazanıb. Bu barədə APA "Vatan" qəzetinə istinadən məlumat yayıb. Türkiyədə istehsal edilən "Bayraktar TB2" milli pilotsuz təyyarəsindən ilk dəfə atəş açılıb.**



# Türkiyədən işğalçı Ermənistanın yuxusunu qaçıracaq texnoloji uğur

## Üzeyir Cəfərov: "Bayraktar TB2" pilotsuz təyyarələrinin yaxın zamanlarda ölkəmizdə olacağını istisna etmirəm"

Konyada aparılan sınaq zamanı "Bayraktar TB2" Türkiyənin "Roketsan" şirkəti tərəfindən hazırlanmış ağıllı roket "MAM-I" vasitəsi ilə 8 km uzaqlıqdakı hədəfi 100 faiz dəqiqliklə vurub. Qardaş ölkənin bu sahədəki uğuru ölkəmizdə rəğbətlə qarşılanmaqla yanaşı, bir sıra müzakirələrə səbəb olub. Ekspertlərə görə, Azərbaycan bu sahədə yaxından əməkdaşlıq etdiyi İsraildən daha çox Türkiyəyə üstünlük verə bilər. Çünki artıq Türkiyə müasir silah istehsalında dünyanın qabaqcıl ölkələrindən birinə çevrilməkdədir.

Hərbi ekspert Üzeyir Cəfərov Türkiyənin uğurunun Azərbaycanın uğuru olduğunu bildirdi: "Türkiyə hər zaman ölkəmizə istənilən məsələdə dəstək olub. Onların silahları bu günləri doğrudan da çox qürurvericidir. Qardaş ölkənin müdafiə sənayesi son illər ciddi uğurlar qazanıb. Bu istiqamətdə işlər də davam edir. Onların hərbi sənayesi hazırda Azərbaycana da böyük fayda verir. Türkiyənin istehsal etdiklərinə ölkəmizdə də ehtiyac yaranıb. Sonuncu "Bayraktar TB2" pilotsuz təyyarəsi 8 kilometrlik məsafədəki hədəfi 100% dəqiqliklə vurur. İndiyə qədər belə silah olmamışdı. Hazırda bu pilotsuz təyyarə böyük maraq doğurur. Hesab edirəm ki, Azərbaycan artıq bu məhsulla



maraqlanıb və yaxın günlərdə danışıqlara başlayacaq. Azərbaycan ordusunun da arsenalında həmin silahdan olacaq. Türkiyə NATO dövlətidir. Bu qurum son illər ciddi uğurlarla imza atıb. ABŞ, İsrail, Çin, İran və Cənubi Afrika dövlətlərinin içərisində Azərbaycanın əməkdaşlıq etdiyi İsrail var. Son vaxtlar İran da bu sahəyə maraq göstərir. Çinlə də müəyyən maraqlarımız var. Cənubi Afrika ilə artıq birgə məhsullar istehsal edirik. Hesab edirəm ki, "Bayraktar TB2" bir yenilikdir və NATO bundan daha çox istifadə edəcək. Azərbaycan da Türkiyəyə yaxın ölkə olduğundan "Bayraktar TB2"-nin yaxın zamanlarda ölkəmizdə olacağını istisna etmirəm".

Hərbi ekspert İsraillə əməkdaşlıqdan Azərbaycanın imtina edib, daha çox Türkiyəyə yaxınlaşma ehtimallarından da söz açdı: "Son vaxtlar İsrail və Türkiyə arasında münasibətlər yumşalıb. İsrail önəmli addımlar atır. Hər bir ölkə milli maraqlarına uyğun addımlar atır. Düşünmürəm ki, əməkdaşlıqda biz ya İsraildən, ya da Türkiyədən imtina edək. Harada maraqlarımızı təmin edəcək situasiya yaransa, ona uyğun şəkildə addımlarımızı atacağıq. Əməkdaşlıqda Azərbaycan, Türkiyə və İsrail eyni maraqdadır. Burada heç bir qısqanclıq və narahatçılıqdan söhbət gedə bilməz. Bütövlükdə götürdükdə, Azərbaycanın hər iki ölkə ilə əməkdaşlığı böyük uğura gətirib çıxarıb. Aprelin əvvəllərindəki döyüşlərdə əsasən, İsrailə məxsus silahlarla düşməni məhv elədik. Ermənilər bundan çox incidilər və İsrailə qarşı bəzi addımlar atdılar. İsrailin Azərbaycana silah satmasını dayandırmağı tələb etdilər. Amma Azərbaycan çox ağıllı addım ataraq, müasir silahlar aldı. İsrailin hərbi sənayesi bir çox ölkələrin diqqətindədir. Türkiyənin 6-cı yerdə olması da çox böyük uğurdur. Çox yaxşı haldır ki, qardaş ölkənin uğurları bu günləri artmaqdadır. Azərbaycan milli maraqlarına uyğun nə lazımdırsa edəcək. Bu istiqamətdə də addımlar atılır və işlər görülür".

❑ **Cavanşir ABBASLI**

# Bakı "Laçın dəhlizi" əvəzinə "Mehri dəhlizi"ni tələb edə bilər

## Bahar Muradova: "Nədən Naxçıvanla Azərbaycanın əsas hissəsi arasında Mehridən belə bir dəhliz olmasın?"

**Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqların bərpa olunacağı təqdirdə Azərbaycanın Ermənistanla ərazi mübadiləsinə getməsi də mümkün sayılır. Bəzi təhlilçilər hesab edir ki, İrəvan Dağlıq Qarabağdakı ermənilərlə birbaşa əlaqə yaradılması üçün dəhliz tələb etdiyi halda, Azərbaycan da blokada şəraitində yaşayan Naxçıvanla quru yolunun açılması, bu səbəbdən Mehridən keçməklə ona dəhlizin verilməsini tələb etməlidir.**

Düzdür, bu, Ermənistan üçün intihara bərabər razılaşma olardı. Çünki erməni rəhbərliyi də etiraf edib ki, Mehridən İrana açılan pəncərə onlar üçün nəfəslik rolunu oynayır və əgər birinci Qarabağ savaşında bu nəfəslik olmasaydı, Ermənistan boğulardı. Bəs, bu məsələ müzakirə predmeti ola bilərmi?

Milli Məclisin sədr müavini Bahar Muradova "Yeni Müsavat"a açıqlamasında bunu mümkün saydı: "Bu məsələ vaxtilə qalxmışdı. Hesab edirəm ki, bu arqumentin də ciddi bir əsası var. Əgər biz doğrudan da məhdud sayda ermənilərin yaşadığı Dağlıq Qarabağla Ermənistan arasında "Laçın dəhlizi" deyilən bir dəhlizin olmasına danışıqlar prosesində etiraz etməmişiksə, bunun gələcəkdə mümkünlüyünü qəbul ediriksə, nədən Naxçıvanla Azərbaycanın əsas hissəsi arasında Mehridən belə bir dəhliz olmasın?

Ancaq B.Muradova xüsusi vurğuladı ki, "Laçın dəhlizi"nin Ermənistana yol kimi nəzərdə tutulması Azərbaycanın o ərazisindən imtinası anlamına gəlməməlidir: "Bu, qarşılıqlı istifadə üçündür və yenə də Azərbaycan ərazisidir. Yəni yalnız Ermənistanın istifadəsində ola biləcək ərazi ola bilməz. Belə çıxmasın ki, bu dəhliz olacaq və hər iki tərəfdən erməni əsgərləri dayanacaq, bizi oraya yaxın buraxmayacaq. Belə şey mümkün deyil. Əgər biz münaqişənin həllindən sonra normal qonşuluq münasibətləri, diplomatik münasibətlər, gediş-gəlişi nəzərdə tuturuqsa, bu yol elə o əlqələri təmin etməyə daha yaxşı xidmət edə bilər".

İlin sonunda kimi 5 rayonun azad olunacağı barədə Rusiya



ekspertlərinin verdiyi proqnozlara rəğmən, cəbhədə fərqli situasiya müşahidə olunur. Bu situasiya nə vəd edir? Xanım vitse-spiker konkret fikir bildirməyin çətin olduğu qənaətindədir: "Bu müddət ərzində o qədər proqnozlar verməşik ki. Mən hansısa qəti proqnoz verməyin əleyhinəyəm. Amma bu kimi fikirlərin səslənməsini məqbul sayıram - hətta onlarda bizim maraqlarımıza zidd olan məqamlar olsa belə. Hər kəs münaqişənin həlli üçün öz istəklərini, düşüncələrini, məqbul bildiklərini həqiqət kimi qələmə verməyə çalışır. Amma bu, həm də məsələnin gündəmdə olmasını təmin edən cəhətdir".

Aprel toqquşmaları bir daha sübut etdi ki, münaqişədə yalnız iki tərəf var və Dağlıq Qarabağ yalnız oyuncaq rolunu oynayır. Azərbaycan parlamenti ələhiddə Qarabağ müzakirələri keçirib xalqın və dövlətin ümumi mövqeyi ilə bağlı qərar qəbul etməyi planlaşdırırmı?

B.Muradova: "Parlamentdə hər zaman bu məsələyə münasibət bildirilib. Azərbaycan parlamenti qapalı şəkilsdə yalnız Azərbaycan prezidentinin də razılıq verdiyi, həll üçün məqbul variant hesab etdiyi həll variantını müzakirə etməyə yığışmalıdır. Bizə misal gətirirlər ki, Ermənistan qapalı iclas keçirdir. Ermənistan haqsız tərəfdir, işğalçıdır, qonşu dövlətin ərazisini hər gün güc tətbiq etməklə qeyri-qanuni olaraq işğal altında saxlayır. O bilir ki, əvvəl-axır bu torpaqlardan çıxmalıdır. Üstəlik, bilir ki, daha böyük güzəşt onlar tərəfdən olmalıdır və onlar mövqelərini dəyişməyə məcburdur".

❑ **E.PAŞASOY**

"Baxış bucağı"

**Ermənilərin son davranışları bu toplumun, xüsusilə də erməni lobbisinin monolitliyi, məğlubedilməzliyi ilə bağlı yaradılmış mifi darmadağın etdi. Eyni zamanda Qarabağ separatçılarının və Ermənistandakı radikal çevrələrin son zamanlar müşahidə olunan davranışları işğalçı tərəfin nəinki ərazilərimizi tərk etmək, hətta kompromislərə getmək niyyətində olmadığını göstərdi. Belə olan təqdirdə yenə də güc variantının yeganə çıxış yolu olduğu gündəmə gəlir. Ana Vətən Partiyasının sədri, deputat Fəzail Ağamalı da hərb yoluna üstünlük verir. Parlamentin son iclasında düşmənə əraziləri tərk etmək üçün ultimatum verməyə çağırış etmişdi.**

# "Demək lazımdır ki, yığışın, cəhənnəm olun, gedin!"

## Fəzail Ağamalı: "İlin sonuna kimi regionun bu virusdan təmizlənməsinin nöqtəsini qoymalıyıq"

***- Fəzail bəy, təklif etdiyiniz ultimativ tələblərdə konkret nələr var?***

- Aprelin 2-dən 5-nə qədər olan zaman kəsiyində Azərbaycan ordusu Ermənistanın təxribatının qarşısını aldı və mülki əhalini işğalçının ardı-arası kəsilməyən atəşlərindən, mərmilərindən xilas etmək üçün konkret addımlar atdı və Azərbaycan özünün potensialını, real gücünü, imkanlarını nümayiş etdirdi. Bu, bizim üçün çox ciddi bir qələbənin başlanğıcı, ermənilər üçünsə məğlubiyyətin ilkin göstəriciləri idi. Lakin Ermənistan bundan nəticə çıxarmadı. Dünyanın aparıcı dövlətlərin rəhbərləri, beynəlxalq təşkilatlar hər iki tərəfə atəşkəslə bağlı müraciət etdilər - baxmayaraq ki, Azərbaycan bu qələbələri davam etdirə bilərdi, ancaq beynəlxalq aləmin çağırışlarına hörmətlə yanaşdığı üçün dayandı - təbii ki, öz gücünə arxayın olaraq. Ancaq Ermənistan beynəlxalq hüquqa hər zaman arxa çevirdiyi kimi, indi də ATƏT-in Minsk Qrupunun həmsədrlərinin çağırışlarına, beynəlxalq təşkilatların və aparıcı dövlətlərin rəhbərlərinin çağırışlarına, hətta özünün ağası olan Rusiya prezidentinin "dayan" təklifinə məhəl qoymadı. Hətta bunun ardınca işğalçı təkcə hərbi mövqelərimizi deyil, həm də mülki əhalimizi hədəfə aldı. Son günlər bir daha bəlli oldu ki, Ermənistan sülhə hazır deyil. Ona görə də Azərbaycan bütün bu arqumentləri əsas gətirərək, Ermənistana ultimatum elan etməlidir. Konkret zaman göstərməlidir ki, bu zaman çərçivəsində Ermənistanın Azərbaycan torpaqlarındakı hərbi qüvvələri son əsgərinə qədər çıxarılmalıdır. Təbii ki, söhbət 7 rayondan, həm də Dağlıq Qarabağdan gedir. Azərbaycanın BMT tərəfindən tanınmış əraziləri çərçivəsində - Kəlbəcərdən Əsgərana, Laçından Ağdama qədər bütün ərazilərimizdən Ermənistanın sonuncu əsgərinə qədər çıxarılmalıdır.

***- Bundan əvvəl də işğalçıya vaxt verilməsi barədə fikirlər olub. Siz konkret olaraq düşmənə nə qədər vaxtın verilməsini təklif edirsiniz?***

- Uzağı 10-15 gün. Bu vaxtı uzatmaq olmaz. Demək lazımdır ki, yığışın, cəhənnəm olun, çıxın, gedin! Sadəcə, bunun mexanizmini hazırlamaq lazımdır ki, Ermənistan Azərbaycanın ultimatumunu ciddi şəkildə nəzərə alsın. Ondan sonra əgər İrəvan bu ultimatuma konkret cavab verməsə, onda bütün məsuliyyət Ermənistanın cinayətkar rejiminin üzərinə düşür və Azərbaycan öz ərazi bütövlüyünü təmin etmək hüququndan istifadə edərək hərbi əməliyyatlara başlamalı və nəhayət, Azərbaycanın Milli Ordusu üzərinə düşən tarixi, region üçün böyük təhlükə təşkil edən bu virusdan azad etmə missiyasını həyata keçirtməli və erməni ordusunu öz sərhədlərinə qədər qovub-çıxartmalı, işğal altındakı torpaqları azad etməlidir.

***- Zahirən Ermənistanla Rusiya arasındakı münasibətlərdə soyuqluq hiss olunsa da, əksəriyyət arxa planda oyunların oynandığı qənaətindədir. Rusiyanın Azərbaycana xoş olmayan sürprizini gözləmək olarmı?***

- Əgər Rusiya da vaxtilə BMT Təhlükəsizlik Şurasının üzvü kimi ortaya qoyduğu iradənin ziddinə olaraq, Azərbaycanın ərazi bütövlüyünə təcavüz edirsə, onda Ermənistanla bərabər Rusiya da təcavüzkar dövlət statusunu qazanır. Azərbaycan hərbi əməliyyatları Ermənistanın sərhədlərinə qədər davam etdirməlidir ki, İrəvan bundan sui-istifadə edib BMT TŞ üzvü kimi Moskvaya müraciət etməsin və Moskva da bəhanə ilə Azərbaycana təcavüz etməsin. Azərbaycan öz sərhədləri çərçivəsində ərazi bütövlüyünü təmin etməlidir. Burada beynəlxalq hüquq, reallıq və həqiqət Azərbaycanın yanındadır. Əgər Rusiya Ermənistanın yanında olub Azərbaycana qarşı təcavüzkar hərəkətini ortaya qoysa, şübhə etmirəm ki, Qafqaz cəbhəsində dünya müharibəsi başlaya bilər. Çünki o halda Türkiyə savaşa cəlb oluna bilər. Türkiyə cəlb olundusa, NATO da cəlb olunacaq. Beləliklə, dünya od içində yanıb məhv olar. Odur ki, məncə, Rusiya buna getməz. Rusiya hakimiyyəti öz dövlətinin maraqlarını əsas götürərək dünyanı müharibə alovu içərisində məhv etməyi düşünmürsə, heç vaxt Ermənistanın avantürasına getməməlidir. Ermənistanın avantürasına getsə, deməli, Kremldə erməni beyni Rusiya beynindən daha aktiv işləyəcək və faktiki olaraq Ermənistan və ermənilər Rusiyanı özünün maraqlarının girovuna, qurbanına çevirəcək.

***- Sizdəki məlumat necədir, rəsmi Bakı Kremlin bu gizli mövqeyindən ehtiyatlanırmı?***

- Təbii ki, biz Rusiya amilini unutmalı deyilik. Rusiya bu gün gərgin və əsəbidir. Üstəlik, özünü küncə sıxışdırılması ilə ələqədar çox aqressiv aparmaqdadır. Çalışır ki, dünya çapında özünün lider dövlət statusunu bərpa etsin. Ona görə də imkanlardan yararlanmaq istəyir. Rusiyanın təkcə MDB daxilində deyil, eyni zamanda, Suriya böhranında iştirak etməsi, Türkiyə ilə qarşıdurmada olması, ABŞ və Avropa ilə gərginləşən münasibətləri göz önündədir. Əslində Rusiyanın Sovet İttifaqı zamanında olduğu kimi, dünya çapında mövqelərini bərpa etməsi cəhdinə qarşı ABŞ başda olmaqla Qərbin müqavimət göstərdiyini müşahidə edirik. Belə bir şəraitdə Rusiya həm də Cənubi Qafqazda öz maraqlarını bərpa etməyə, onu gücləndirməyə çalışır. Ermənistan Rusiyanın forpostudur. Artıq Rusiya ona o qədər ciddi şəkildə pərçim olub ki, onun təsirindən çıxmaq istəyərsə, gərək dövlət olaraq dağılıb getsin. Bu baxımdan Rusiya Azərbaycanı daha ciddi şəkildə nəzərə alır və onunla əməkdaşlığa üstünlük verməyə çalışır. Nəzərə alsaq ki, Avropa tərəfindən sıxışdırılan Rusiyanın bu gün Hind okeanına çıxışına böyük ehtiyac var, bu yol isə Azərbaycandan keçir.

***- Amma Kreml öz maraqlarını daha rahat reallaşdırmaq üçün Azərbaycanı ilhaq etmək niyyətində də ola bilər. Bu da var ki, Bakı hələlik Rusiyanın istəklərinə müsbət cavab vermir...***



**"Prezident İlham Əliyev Azərbaycanın dövlət müstəqilliyinə son dərəcə sədaqətlidir və bununçün bütün risklərə hazırdır"**

- Yox, bu, mümkün deyil. Azərbaycan prezidenti birmənalı olaraq Azərbaycanın dövlət müstəqilliyinin təminatçısı kimi çıxış edir, bütün risklərə gedir, bütün çətinlikləri göz önünə alaraq, Azərbaycanın illərdən bəri əsası ulu öndər tərəfindən qoyulmuş dövlət müstəqilliyimizi qoruyub saxlayır. Ölkə prezidentinin fəaliyyətini ciddi izləyənlərdən biri kimi deyə bilərəm ki, prezident İlham Əliyev Azərbaycanın dövlət müstəqilliyinə son dərəcə sədaqətlidir və bununçün bütün risklərə hazırdır. Prezidentin bu riskləri xalqın, cəmiyyətin ona dəstəyi ilə tam şəkildə sığortalanıb. Ona görə də Rusiyanın Azərbaycanı ilhaq etmək haqqında fikirləri olarsa, bu, yanlışdan başqa bir şey olmayacaq. Rusiyanın belə bir addımı olsa, 20-ci əsrin əvvəllərindən fərqli olaraq, son əsgərimizə qədər döyüşmək zorunda qalarıq, təki müstəqilliyimiz əldən getməsin. Bu gün dünya 20-ci əsrin əvvəlindəki dünya deyil. Nəzərə alsaq ki, Rusiya Ukraynada, Gürcüstanda ilişib, ilhaqçı dövlət statusu qazanıb, məncə, o, Azərbaycanda ölümcül bir riskə getməz.

***- Fəzail bəy, Azərbaycandakı "beşinci kolon"la bağlı kifayət qədər danışılıb. Necə hesab edirsiniz, ötən əsrin əvvəllərində olduğu kimi, bu gün də şimaldan günəş gözləyən əliheydər qarayevlər, çingiz ildırımlar varmı və onların mövqeləri nə dərəcədə güclüdür?***

- Bəli, elə insanlar bu gün də var, ancaq onların gücü o vaxtkı əliheydər qarayevlərin və ya çingiz ildırımların gücü qədər deyil. Çünki cəmiyyətdə sosial dayaqları yoxdur. Onlar "beşinci kolon"un nümayəndələri kimi ya rus rublu ilə yaşayan, yaxud Rusiya prezidenti ilə əməkdaşlıq edən insanlardır. Bunlar lokal xarakterli nəsə bir şey edə bilərlər. Lakin onların baxışları, əhval-ruhiyyəsi, məqsədləri ölkə cəmiyyətin baxışları, məqsədləri, düşüncələri ilə heç bir halda üst-üstə düşmür. Azərbaycan əhalisinin mütləq əksəriyyəti dövlət müstəqilliyimizin hətta qırğınlardan keçərək qorunub-saxlanması mövqeyindədir. Azərbaycan cəmiyyətinin 20 il ərzində mükəmməl bir cəmiyyət kimi formalaşmasına elə bu yaxınlarda şahid olduq. 2-5 aprel tarixlərində Azərbaycan Milli Ordusunun düşmənə vurduğu ağır zərbələr bəzi tör-töküntülər istisna olmaqla, ölkə insanının Azərbaycan bayrağına bürünərək küçə və meydanlara çıxması ilə müşayiət olundu, bayram edildi. Vaxtilə Müslüm Maqomayevin dəfnində insanların əl çalmasının şahidi olmuşduq. Ancaq aprel döyüşlərində şəhid olanların dəfnində insanları göz yaşı tökən yox, baxışlarından qürur hissi süzülən, şəhidlərimizi alqışla son mənzilə yola salan gördük. Ona görə də "beşinci kolon"un, Rusiyanın burada əlaltısı olan insanların heç bir sosial dayağı, ictimai rəydə gücü və nüfuzu yoxdur.

***- Bu yaxınlarda Azərbaycan xarici işlər naziri Elmar Məmmədyarovun italyan müğənnisinin konsertində görünməsi etirazla qarşılandı, geniş müzakirə olundu. Hesab olunur ki, müdafiə naziri Zakir Həsənov ön cəbhədə səngərdə olduğu kimi, XİN başçısı da diplomatiya cəbhəsində səngərdə olmalıdır, səfirliklər fövqəladə iş rejimində çalışmalıdırlar. Razısınızmı?***

- Tamamilə ciddi məsələyə toxunursunuz. Mən də bu məsələnin aktuallığını birmənalı şəkildə qəbul edirəm. Ermənistan ordusuna qarşı həyata keçirdiyimiz əməliyyatlara görə dünyanın aparıcı dövlətləri, beynəlxalq təşkilatları Azərbaycanı qınamadı. Mən bunu birmənalı şəkildə ölkə prezidentinin diplomatik və xarici siyasətinin qələbəsi kimi qəbul edirəm. Xarici siyasət sahəsində bu diplomatik qələbənin şəriksiz müəllifi ölkə prezidenti İlham Əliyevdir. Xatırlayırsınızsa, dövlət başçısı prezident seçildikdən dərhal sonra "hücum diplomatiyasından çıxış etməliyik" tezisi ilə çıxış etdi və bütün xarici səfərlərində, dünyanın ayrı-ayrı dövlətlərinin, beynəlxalq təşkilatların Azərbaycana səfəri zamanı, ölkəmizdə keçirilən ciddi tədbirlərdə Ermənistan üzərinə hücumu birmənalı şəkildə ifadə etməklə həm də yeni bir tezis ortalığa qoydu: indiki Ermənistan Azərbaycanın tarixi torpaqlarında yaradılmış dövlətdir. Prezident səviyyəsində bu məsələnin ciddi şəkildə önə çəkilərək ifadə olunması dünyanın bir çox dövlətlərinin və təşkilatlarının diqqətini bu tezisə cəlb etdi. Düşündülər ki, doğrudan da Ermənistan Azərbaycanın tarixi torpaqlarında yaradılmış bir ölkədir və indi də ikinci bir dövlət yaratmaq istəyirlər. Azərbaycan prezidentinin "Azərbaycan ərazisində ikinci bir erməni dövlətinin yaradılmasına yol verməyəyəcik" deyə, qətiyyətli və ardıcıl bəyanatları dünyanı ayılmağa, həqiqətin yanında olmağa vadar etdi. Ona görə də son əməliyyatlarda Azərbaycan heç bir ittihama məruz qalmadı, hətta erməni lobbisi susmaq məcburiyyətində qaldı. Prezidentin mövqeyi aydındır. Bundan sonra diplomatlarımızın, səfirliklərimizin, XİN-in nazirdən başlamış ən kiçik məmuruna qədər hər kəsin sayıqlığı, fəallığı daha da artmalı, xüsusilə xaricdə yaşayan soydaşlarımızla iş güclənməlidir. Necə ki, aprel hadisələri baş verəndə, ondan sonrakı günlərdə Avropada Avropa Azərbaycan Cəmiyyəti ciddi fəallıq nümayiş etdirdi, lakin başqa təşkilatlardan biz bunu görmədik. Diaspora Komitəsi də öz işini gücləndirməlidir, nəhayət, dünyada yaşayan 50 milyonluq bir millət ayağa qalxmalıdır. Necə ki, həmin dövrdə Təbrizdə, Türkiyədə, Avropada ayağa qalxdılar, bundan sonra da diplomatiyamızla birgə, hər yerdə soydaşlarımız ayağa qalxıb erməni faşizminin üstünə getməlidir. Nəhayət, bu region, Türk dünyası bu iyrənc, yaramaz virusdan - erməni faşizmindən birdəfəlik xilas olmalıdır. Bu regionu bu təhlükəli virusdan, taundan birdəfəlik xilas etməyin zamanı çatıb. Bu ilin sonuna qədər regionun bu virusdan təmizlənməsinin nöqtəsini qoymalıyıq. Digər qonşularımız da unutmasın ki, Ermənilərin məqsədi təkcə Azərbaycanın deyil, Gürcüstanın da bir hissəsini işğal etmək, ondan sonra isə Şimali Qafqazı ələ keçirməkdir. Bəzi qüvvələr unutmasın ki, bu gün Rusiyadan istifadə edib Azərbaycan və Gürcüstan torpaqlarını işğal etməyə çalışan ermənilər daha sonra Qərbin və ABŞ-ın imkanlarından istifadə edib Rusiyanın torpaqlarını ələ keçirəcəklər.

❑ **Elşad PAŞASOY**
**Foto: "YM"**

# Naxçıvan MTN-in rəhbərinin həbsinin əsl səbəbi

## "Eldar Mahmudov təklif edib ki, Vasif Talıbovu dinlə..." - vəkildən sensasiyalı açıqlama




**Naxçıvanın sabiq milli təhlükəsizlik naziri, hazırda ev dustağı olan Vəli Əsgərov ötən həftə vəkili Vüqar Xasayev vasitəsi ilə ictimaiyyətə vacib hesab etdiyi məlumatları çatdırdı. Vəkil Vüqar Xasayev "Yeni Müsavat" əməkdaşına bildirib ki, Vəli Əsgərovun "vurulması"nın əsas səbəbini açıqlamaq istəyirlər.**

**Vəkil deyib:** "Vəli Əsgərov bu məsələnin ictimailəşməsini istəyir. Eldar Mahmudov vəzifədə olarkən Vəli Əsgərova təklif edib ki, "sən Vasif Talıbovu və ailə üzvlərini dinlə". Deyib ki, "dinlə və materialı mənə ötür". Vəli Əsgərov isə bundan imtina edib. Deyib ki, ünvanı səhv salmısan, mən heç vaxt rəhbərimə xəyanət etmərəm. Mən belə qanunsuzluqla məşğul olmaram. İmtina edəndən sonra Eldar Mahmudov onun barəsində konrtmaterial yığmağa başlayıb. Guya Vəli Əsgərov Bakıya vəzifəyə gəlmək istəyir. Bu səpkili dezinformasiyanı Vasif Talıbova ötürüb. Bundan sonra Vəli Əsgərovun başına bu oyunlar gəlib".

Vəkil V.Əsgərovun istintaq təcridxanasına aparılaraq işgəncələrə, qeyri-insani rəftara məruz qaldığının təfərrüatlarını danışıb: "Səhər onun evinə 4 nəfər gəlib və istintaq təcridxanasına aparıblar. Orada başına torba keçirib, boynuna kəndir salıblar. Asacaqlarını, boğacaqlarını deyiblər. Sonra müstəntiq Pərviz Hüseynov təcridxananın zirzəmisinə gəlib. Vəli Əsgərova deyib ki, "sən mətbuat konfransı keçirirsən, vəkil tutursan. Vəkil bizə nə edəcək? Sənin başına istədiyimiz oyunu gətiririk. Sənə əlavə 2 maddə ilə ittiham verəcəyik. Barəndə qətimkan tədbirini dəyişib göndərəcəyik həbsxanaya".

Vəli Əsgərov deyib ki, nə istəyirsiz edin. Bundan sonra Pərvizə zəng gəlib və Vəli Ələsgərovu yola salıblar. Deyiblər ki, sənin başına oyun açarıq, get sus".

V.Xasayev deyir ki, keçirdikləri mətbuat konfransında Baş Prokurorluğa və digər dövlət qurumlarına etdikləri müraciətlərə hələlik cavab verilməyib.

Qeyd edək ki, Vəli Ələsgərov 15 il Naxçıvanın milli təhlükəsizlik naziri olub. Həbsindən bir neçə ay əvvəl general-leytenant rütbəsi verilib. Eldar Mahmudov milli təhlükəsizlik naziri postundan çıxarılandan sonra onun postuna V.Əsgərovun namizədliyi müzakirə olunub. Vəkilləri bildiriblər ki, onun barəsində çirkin kampaniya bundan sonra başlanıb, özünü həbs edib yaxınlarının əmlaklarını əllərindən alıblar, 50-yə yaxın qohumu işdən qovulub.

V.Əsgərovun nazirliyi dövründə Naxçıvan MTN öndə gedən repressiv orqan kimi ad çıxarıb, orada ictimai fəallar, jurnalistlərə qarşı zorakılıqlara yol verilib, şantaj olunub, Naxçıvan sakinlərinin bir neçəsi qurumdakı dəhşətli işgəncələrin sonucu olaraq dünyalarını dəyişiblər.

❑ E.MƏMMƏDƏLİYEV

# Azərbaycanda iqtisadi cinayətlərə görə məsuliyyət yüngülləşdiriləcək



**Azərbaycanda iqtisadi sahədə törədilən cinayətlərə görə məsuliyyət yüngülləşdiriləcək. APA-nın məlumatına görə, bu, Azərbaycan prezidenti İlham Əliyevin 27 aprel 2016-cı il sərəncamı ilə təsdiq edilən "Açıq Hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı"nda əksini tapıb.**

Milli Fəaliyyət Planına əsasən Nazirlər Kabineti, Ədliyyə Nazirliyi, İqtisadiyyat Nazirliyi 2016-2017-ci illərdə iqtisadi sahədə törədilən cinayətlərə görə məsuliyyətin yüngülləşdirilməsi və dekriminalaşdırılması ilə əlaqədar qanunvericilik və digər tədbirlərin görülməsini təmin etməlidir. Milli Məclis Baş Prokurorluğa da bu tədbirlərin həyata keçirilməsinə dəstək verməklə tövsiyə edilib.

# Nazirlik rəsmisi ölüm saçan kolbasalardan danışdı

## Abbas Əliyev: "İstehlakçıların hüquqlarının qorunması üçün 12 maarifləndirici konfrans, dəyirmi masalar təşkil edilib, 85 mindən yuxarı buklet paylanıb"

**Son günlər mətbuatda kolbasa məmulatlarının tərkibi, antisanitariya şəraitində hazırlanması, istehsal prosesində at, eşşək və gündəlik qida rasionumuza daxil olmayan digər heyvanların ətindən istifadə edilməsi barədə yazılar dərc olunur. Buna dair faktlar da aşkarlanıb. Rayonlardan paytaxta mənşəyi məlum olmayan, leş ətlərin gətirilməsi də üzə çıxıb. Məsələyə dair İqtisadiyyat Nazirliyinin mətbuat xidmətinin rəhbəri Abbas Əliyev münasibət bildirib.**

A.Əliyevin sözlərinə görə, Azərbaycanda istehlak bazarı nəzarətsiz deyil. İqtisadiyyat Nazirliyi yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidməti monitorinq, baxış, müayinə və digər metodlardan istifadə etməklə istehlak bazarına nəzarət tədbirlərini həyata keçirir.

Xidmət rəhbəri deyir ki, qeyd edilən xoşagəlməz halların qarşısının alınmasında əsas məsələ istehlakçı fəallığını artırmaqdır. Bu baxımdan dövlət tərəfindən sistemli tədbirlər davam etdirilir:

- Ötən il istehlakçıların hüquqlarının qorunması sahəsində müxtəlif rayonlarda və Bakıda 12 maarifləndirici konfrans təşkil olunub. Bundan başqa dəyirmi masalar təşkil edilib. 85 mindən yuxarı bukletlər, 6 minə yaxın yaddaş kitabları hazırlanıb istehlakçılara paylanıb. İstehlakçı hüquqlarında ən vacib məsələlərdən biri istehlakçıların maarifləndirilməsidir. Bundan başqa qeyd etdiyim metodlarla istehlak bazarına nəzarət həyata keçirilir.

***- At, eşşək ətinin kolbasa məmulatlarına qatılmasının, qənd istehsalında it sümüklərinin belə üyüdülərək istifadə olunmasının qarşısının alınması üçün bukletlərin, yaddaş kitabçalarının hazırlanaraq yayılması, konfransların keçirilməsi yetərlidir?***

- İstehsalçı keyfiyyətli mal istehsal etməkdə maraqlıdır. Çünki rəqabət mühiti bunu tələb edir. İstehsal prosesi bütünlükdə baytarlıq nəzarəti ilə həyata keçirilir. Belə hallar dövlət xidməti tərəfindən qarşılanmayıb.

***- Mətbuatda yazılanların monitorinqini aparıb müvafiq addımlar atırsınızmı?***

- Hər gün müvafiq monitorinqlər aparılır və aidiyyəti üzrə qurumların diqqətinə çatdırılır. Bundan sonra araşdırmalara başlanır. Əgər mətbuatda gedənlər təsdiqini tapırsa, müvafiq tədbirlər görülür. Belə hallarla rastlaşan istehlakçılar üçün 195-2 çağrı mərkəzi də fəaliyyətdədir. İstehlakçı bu və ya digər malın keyfiyyətsizliyi, standartlara cavab verməməsi ilə bağlı müraciət edə bilər.

***- Piştaxtada bir kolbasa var və istehlakçı kolbasanın tərkibinin üzərində göstərilənlərdən ibarət olmasına şübhə edir. Bu halda istehlakçı hara müraciət etməlidir?***

- İstehlakçının hər bir mal haqda məlumat almaq hüququ var. Hər bir malın üzərində istehsal tarixi, malın tərkibi, istehsalçının rekvizitləri haqda məlumatlar var. Ancaq hər hansı halla qarşılaşırsa, qaynar xəttə müraciət edə bilər.



**"İstehlakçı fəallığı da belə halların qarşısının alınmasında vacib şərtdir"**

***- Əsasən kolbasa istehsalında eşşək, at və digər təkdırnaqlı, caynaqlı heyvan ətindən istifadə olunmasına dəlalət edən çox ciddi məlumatlar var. Kənd Təsərrüfatı Nazirliyinin açıqladığı rəqəmlərə görə, təkcə bu ilin 4 ayı ərzində nazirliyin əməkdaşları 70 tona yaxın mənşəyi bilinməyən, at-eşşək əti olması şübhə doğuran, satış üçün nəzərdə tutulan cəmdəklər aşkar ediblər.***

- Bu faktın özü elə nəzarətdən xəbər verir. Nəzarət olmasaydı, 70 ton mənşəyi bilinməyən ət satışa çıxarılardı. Nəzarət var deyə, satışa çıxarılmasının qarşısı alınıb. Yəni istehlak bazarı daim nəzarətdədir.

***- 70 ton mənşəyi bilinməyən ət satışa çıxarılana qədər saxlanılıbsa, deməli hər gün ölkə bazarlarında at-eşşək ətinin satılması istisna deyil.***

- İstehlakçı fəallığı da belə halların qarşısının alınmasında vacib şərtdir. Əgər istehsalçı belə halla qarşılaşıbsa, bizim qaynar xəttə məlumat verməli və məsələ operativ şəkildə yoxlanılmalı, müvafiq tədbirlər görülməlidir.

***- Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov deyir ki, Azərbaycanda qida məhsullarının ekspertizasını həyata keçirəcək müstəqil laboratoriya yoxdur. Razısız bu fikirlə?***

- Bu, Eyyub müəllimin fikirləridir. İqtisadiyyat Nazirliyinin nəzdində müvafiq laboratoriya var və mütəmadi olaraq bazardan müxtəlif ərzaq məhsullarını götürüb analizini aparır. Bu anonim şəkildə edilir. Əgər hər hansı bir hal müəyyən olunduqda müvafiq tədbirlər görülür.

***- Bir qədər konkretləşdirək. Sonuncu dəfə bazardan neçə adda məhsul götürülüb və tərkibləri bəyan edilənlərlə üst-üstə düşübmü? Tərkiblərdə sağlamlığımızı təhdid edən, bizi zəhərləyən maddələr, qarışıqlar aşkar olunubmu?***

- Ötən 1 ay ərzində ərzaq bazarından 500-ə yaxın nümunə götürülüb və laborator analizlər aparılıb. İnsan sağlamlığı üçün təhlükə törədəcək hər hansı bir hal müəyyən olunmayıb.

***- At-eşşək əti kolbasanın tərkibində varsa, bunu necə müəyyən etmək olar?***

-Tərkib malın üzərində yazılır. Əgər tərkiblə malın üzərində yazılanlar eyni deyilsə, bu artıq qanun pozuntusudur. Və bütün tədbirlər də ona yönəlib ki, keyfiyyət və təhlükəsizlik göstəricilərinə əməl olunsun.

***- Laborator müayinə belə uyğunsuzluqları ortaya çıxara bilir?***

- Laborator müayinə imkan verir ki, malın keyfiyyəti olub-olmaması aşkarlansın.

***- Bəs malın tərkibindəki ət məhsulunun - at, eşşək, zebu, kenquru və s. heyvana aidliyini aydınlaşdırmaq mümkündür?***

- Tərkibi müəyyən etmək mümkündür.

***- 70 ton mənşəyi bilinməyən ət satışa qədər tutulub və təmsil etdiyiniz qurum 500-ə yaxın ərzaq məhsulunun laborator analizini həyata keçirib, amma hər hansı bir uyğunsuzluq aşkar etməyib?***

- Satışda olan məhsulların laborator analizinin aparılması mütəmadi prosesdir və hər ay, hər gün bu analizlər aparılır.

***- Bakıda tanınan supermarket şəbəkəsindən kəllə qənd almışıq. Qəndin içində emal olunmamış duz dənəciklərini xatırladan kristallar var. 500 nümunədən birində hər hansı bir uyğunsuzluq olmadığını qeyd etdiniz. Belədirsə, dediyim kəllə qənd piştaxtaya necə gedib çıxıb?***

- Biz istehlak bazarına nəzarət tədbirlərini həyata keçiririk. Son nəzarət tədbirləri zamanı bu cür hallarla qarşılaşmamışıq. Müəyyən çatışmazlıqlar müəyyən olunub və aradan qaldırılması üçün həmin məhsulları bazara çıxaran şirkətlərə məlumatlar verilib ki, nöqsanlar aradan qaldırılsın. Təkrar nəzarət davam etdirilib ki, belə hallar bir daha təkrar olunmasın.

***- Belə hallar, nöqsanlar müəyyən olunanda istehsalçının qüsurlu mal istehsalında maraqlı olub-olmaması araşdırılır? Başqa sözlə desək istehsalçının malın çəkisini artırmaq üçün keyfiyyətsiz məhsullardan istifadəyə yol verməsi istiqamətində təhqiqat aparılır?***

- Biz istehlak bazarına nəzarət edən qurumuq. İstehsal bazarından götürülmüş nümunələri müayinə edirik. İstehlak bazarında keyfiyyətsiz mal aşkar olunursa, şübhəsiz ki, həmin mallar satışdan çıxarılır. Həmin malların növbəti partiyası bazara çıxarılarkən onun təkrar müayinəsi həyata keçirilir. Keyfiyyətlidirsə, malın bazara çıxarılmasına yol verilir.

***- Əgər mal keyfiyyətsizdirsə, həmin mal bazardan çıxarılırsa, niyə görə bu məlumatlar ictimailəşdirilmir ki, istehlakçı həmin malları almasın?***

- Biz belə hallar olanda ictimaiyyəti məlumatlandırırıq.

***- "Min bərəkət, halal nemət" markası altında bazara çıxarılan kolbasa məmulatlarının tərkibi haqda müxtəlif xoşagəlməz məlumatlar var. Mətbuatda da bu haqda yazılar dərc olunub. Bu məsələ ilə bağlı araşdırma aparıbsınız?***

- Əgər belə hallar varsa, araşdırmağa hazırıq.

❑ E.MƏMMƏDƏLİYEV

YENİ MÜSAVAT
N 94 (6415) 2 may 2016

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**

# Qarabağdakı 4 günlük müharibədən 1 ay keçdi - əsas nəticə nədir?

## Ötən bir ayda sülh yaxınlaşmaq əvəzinə, daha əlçatmaz olub; işğalçı Ermənistanın iddialı mövqeyi yeni və böyük hərbi eskalasiyaya zəmin yaratmaqdadır; politoloq: "4 günlük müharibə baş verəcəklərin yanında jurnal ola bilər..."

**Dağlıq Qarabağ konflikti ətrafında keyfiyyətcə tam yeni situasiyaya səbəb olan 4 günlük müharibənin başlanmasından 1 ay ötür. Ancaq hələ ki, bu keyfiyyət dəyişikliyi özünü nizamlama prosesində göstərə bilməyib. Halbuki, 2-5 aprel döyüşləri zamanı bütün dünya, məxsusən də həmsədr dövlətlər - Rusiya, ABŞ və Fransa əmin oldular ki, münaqişə hər an genişmiqyaslı müharibəyə də çevrilə bilər, əgər tezliklə onun həllində ciddi irəliləyiş əldə olunmasa.**






Əfusus ki, bu irəliləyiş hələ ki, gözə dəymir. Əksinə, 5 aprel atəşkəsindən sonra Ermənistan şərtləri yerinə yetirmək əvəzinə, öz havadarına - Rusiyaya güvənərək bir az da radikal mövqeyə köklənib və əlavə absurd şərtlər irəli sürür. Dünya işğalçıdan ərazilərin heç olmasa, bir qismini boşaltmağı gözlədiyi halda, İrəvan, nümayişkaranə şəkildə sülh prosesindən boyun qaçırır.

Belə çıxır bu 1 ay boşuna gedib. Demək yeni müharibə ehtimalı sövq-təbii yüksəlib. Əksər təhlilçilər də elə o qənaətdədir ki, məhz aprel savaşından sonrakı bir neçə ay ərzində nizamlama prosesində ciddi dönüş olmasa, daha genişmiqyaslı qarşıdurma qaçılmaz olacaq.

Müharibədən qaçmağın yeganə alternativi isə münaqişə ətrafındakı status-kvonu təcili dəyişməkdir. Bunu ilk növbədə beynəlxalq güclər etməlidir. Əlbəttə ki, belə vəziyyətdə, yəni beynəlxalq birlikdən, ATƏT-in Minsk Qrupuna rəhbərlik edən üçlü dövlətdən - ABŞ-dan, Rusiyadan, Fransadan heç bir ciddi təzyiq görməyən təcavüzkarı Azərbaycan özü ram eləmək, cəzalandırmaq zorunda qalır. Demək, Qarabağ münaqişəsi zonasında yeni və daha böyük müharibə riski ciddi olaraq qalır.

***

Şübhə yox ki, məhz bu riski nəzərə alaraq da, ötən həftəsonu Rusiya xarici işlər naziri Sergey Lavrovla ABŞ-ın dövlət katibi Con Kerri bir daha telefonda Qarabağ məsələsini müzakirə ediblər. Daha sonra ABŞ Dövlət Departamentinin rəsmisi bir daha "münaqişə tərəflərini nizamlama prosesinə qayıtmağa" çağırıb.

Lakin əfuslar olsun ki, bu kimi zəng və çağırışlar işğalçı üçün yetərli deyil, danışıqlar prosesində staqnasiya davam edir. Azərbaycan və Ermənistan prezidentlərinin görüşü indi heç üfüqdə də görünmür. İki ölkənin xarici işlər nazirlərinin təması da tezliklə nəzərdə tutulmur. Azərbaycan XİN başçısı ötən həftə yalnız onu deyib ki, gələn həftə o, həmsədrlərlə görüşə biləcək.

Hələlik üzdə olan həm də budur ki, Rusiya Qarabağ danışıqlarında özünü monopolist kimi aparır. Sanki ABŞ yaxasını kənara çəkib və Kremlin bu işi necə çözəcəyini müşahidə eləməkdədir. Rusiyanın isə, şübhəsiz, Qarabağla bağlı öz maraqları var - bunlar Azərbaycanı da Ermənistan kimi Avrasiya İqtisadi Birliyinə və Gömrük İttifaqına qoşmaq, bir də imkan düşərsə, konflikt zonasında öz hərbi qüvvələrini yerləşdirmək.

Bəs bundan sonrakı gözləntilər, proqnoz nədir?

"İndiki vəziyyətdə beynəlxalq birliyin susqun davranışına və atəşkəsin Ermənistan tərəfindən kobud şəkildə pozulmasının, dinc əhalini, yaşayış məntəqələrini hədəf seçməsinə kənar müşahidəçi kimi izləməsinə hər kəs təəccüb edir. Çünki aprel ayının əvvəllərində baş vermiş Ermənistanın məlum hərbi təxribatından sonra beynəlxalq birlik, Minsk Qrupu çox fəal reaksiya verdi. Atəşkəsin dərhal saxlanması ilə bağlı təşəbbüslərlə çıxış etdilər. Xüsusilə rəsmi Moskva fəallığı ilə daha çox seçildi. İndiki vəziyyətdə isə biz analoji reaksiyanın şahidi olmuruq. Buna görə də ortaya çoxsaylı suallar çıxır".

Bu barədə politoloq və deputat Elman Nəsirov bildirib (Ölkə.az). Onun sözlərinə görə, mövcud durumda Ermənistan rəhbərliyinin ağılsız hərəkətlərini beynəlxalq birlik tam dərk edə bilmir. "İndiyə qədər tərəflərdən heç biri - nə Azərbaycan, nə də Ermənistan - heç bir zaman birmənalı şəkildə danışıqlardan imtina ilə bağlı mövqe bildirməmişdi. Ermənistan da hər zaman danışıqları istədiyini, danışıqların getdiyini bildirmişdi. İndi isə Ermənistan danışıqlardan imtina edir. Bu, Ermənistan diplomatiyasını da çıxılmaz vəziyyətə salır. Belə çıxır ki, Azərbaycan ərazisinin işğala məruz qalmasına baxmayaraq, dinc həll yolunda maraqlıdır, işğalçı tərəf isə danışıqlardan imtina edir. Bunun özü bu gün çox anlaşılmazdır. Digər anlaşılmaz məqam onunla bağlıdır ki, Ermənistan prezidenti bir şeyi deyir, Xarici İşlər Nazirliyi isə başqa şeyi. Ermənistan prezidenti deyir, danışıqlara lüzum yoxdur, xarici işlər naziri isə sülh danışıqlarının bərpasından danışır. Bunlar hamısı anlaşılmazdır. İndiki halda beynəlxalq birlik, xüsusilə Minsk Qrupu çox müəmmalı şəkildə hadisələri izləyir, ancaq irəliyə doğru bir addım atmır, heç bir konkret mövqe bildirmir. Sanki onlar nəyisə bilirlər, hadisələrin hansı ssenari üzrə gedəcəyindən xəbərləri var, ona görə də gözləyirlər. Bunlar hamısı anlaşılmaz məqamlardır" - politoloq qeyd edib.

Onun qənaətincə, hadisələr belə davam edərsə, Ermənistan atəşkəsi kobud şəkildə pozarsa, dinc əhalini hədəf seçərsə, aprelin əvvəlində baş vermiş hadisələr bundan sonra baş verəcəklərin yanında əsl toy-bayram olacaq ermənilər üçün: "Kim deyirsə ki, Dağlıq Qarabağ münaqişəsi dondurulmuş münaqişədir, müharibə başlaya bilməz, hesab edirəm ki, bu, kökündən yanlış yanaşmadır. Hadisələr ən qəliz, ən təhlükəli şəkildə inkişaf edə bilər, Cənubi Qafqazda elə bir müharibə başlaya bilər ki, digər regionlar məsafə faktorunu nəzərə aldığı üçün rahat qala bilməzlər. Çünki alov digər regionları da caynağına alacaq. Bunu qətiyyən unutmaq olmaz".

***

Beləcə, apreldəki 4 günlük müharibədən keçən 1 ayın əsas yekunu kimi sülhün daha da əlçatmaz olmasını və yeni, daha böyük müharibə ehtimalının artmasını qeyd eləmək lazım gəlir. Bu vəziyyət də əlbəttə ki, işğalçı Ermənistan və onun arxasındakı qüvvənin mövqeyi ilə bilavasitə bağlıdır.

# "Kreml Qarabağa dair yeni planlar cızır"

## Politoloq: "Azərbaycan öz hərbi potensialı ilə başa saldı ki..."

**Artıq Ermənistanda Qarabağ prosesi ilə bağlı bir sıra yeni problemlər yaranıb, hiss olunur ki, İrəvanın arxasında dayanan Rusiyada müəyyən planlar cızılır. Bu barədə Axar.az-a açıqlamasında politoloq Fikrət Sadıqov danışıb. Politoloq Ermənistanın böyük təşviş içərisində olduğunu deyib:**



"İrəvanda hakimiyyətə qarşı narazılıq mitinqlərindən sonra ermənilər müəyyən siyasi dairələrə sübut etmək istəyirlər ki, guya nəyəsə qadirdilər və Azərbaycana qarşı müqavimət göstərə bilərlər. Bir neçə gündür cəbhədəki aktivlikləri də məhz bundan qaynaqlanır. Ermənistan hazırda çox yanlış bir istiqamət götürüb. Çünki onların zərbələrinə Azərbaycan ikiqat cavab verir. Artıq Ermənistan tərəfində proseslə bağlı bir sıra yeni problemlər yaranıb, hiss olunur ki, İrəvanın arxasında dayanan Rusiyada müəyyən planlar cızılır. Bir müddət öncə ilin sonuna qədər beş rayonun qaytarılması ilə əlaqədar ortaya atılan ehtimallar heç də təsadüfi deyildi. Görünür, Rusiya tərəfindən təzyiqlə üzləşəcəklərini bildiklərindən Azərbaycana qarşı təxribatlarla müəyyən nəticə əldə etməyə çalışırlar. Məncə, Qarabağ məsələsi ilə bağlı aparıcı dövlətlərlə ciddi müzakirələr aparılır. Artıq hansısa addımların atılması qaçılmazdır. Çünki Azərbaycan öz hərbi potensialı ilə başa saldı ki, Qarabağla bağlı nəinki Ermənistan, Rusiya ilə də razılaşmayacaq. Buna görə də indi hansısa çıxış yolları axtarmaqdadırlar".

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi

YENİ MÜSAVAT
N 94 (6415) 2 may 2016

# "Ay bədbəxt, yaşa da, de, gül - niyə düşmənçilik edirsən?!"

## Məşhur teleaparıcıdan olay kimi müsahibə; **Mikayıl Güləddinoğlu:** "Çal-çağır"ın ssenaristi olanda "Toppuş bacı", "Key xanım" obrazlarını mən yaratmışam"

**"Space" telekanalında yayımlanan "Sevimli mahnı" verilişinin aparıcısı Mikayıl Güləddinoğlu "Yeni Müsavat"ın redaksiyasında qonağımız oldu. Aparıcılıq etdiyi verilişlərə görə tez-tez tənqidlərə məruz qalan teleaparıcı suallarımıza çox səmimi cavab verdi. İzləyicilər və oxucular daha çox onu "Sevimli şou"nun aparıcısı kimi tanıyır. MTRŞ-nin qərarı ilə proqramdan uzaqlaşdırılan müsahibim ilə söhbətə lap əvvəldən, televiziyaya gəlişindən başladıq:**

- Mədəniyyət və İncəsənət Universitetinə öz istəyimlə qəbul olmuşam. İxtisasım ədəbi yaradıcılıq və ekran dramaturgiyasıdır. Mən bilirdim ki, aparıcı olacağam, ona görə hazırlaşırdım. Elçin Əlibəyli ilə tanış olandan sonra "Çal-çağır" verilişinin ssenaristi oldum. "Toppuş bacı", "Key xanım"ı mən yaratmışam. Bir müddət sonra isə düşündüm ki, artıq tamaşaçı qarşısına aparıcı olaraq çıxmalıyam. İlk dəfə efirə "Davam və tamam" verilişinin aparıcısı kimi çıxmışam. Sonra isə öz verilişimi açmaq qərarına gəldim. "Olduğu kimi" adlı proqramla tamaşaçı qarşısına çıxdım. Beləliklə, o vaxtdan efir həyatım davam edir.

***- Ən çox tənqid olunan aparıcılardansınız. Bu sənəti seçməyə peşman olmamısınız?***

- Heç vaxt mənə yaxınlaşıb deməyiblər ki, pis aparıcısan, səni bəyənmirik. Məni tənqid edənlər xüsusi seçilmiş insanlardır, onlar xalq arasında mənim barəmdə mənfi rəy yaradırlar. Məsələn, yoldan keçən birini göstərib mən də, yanımdakı da desə pis insandır, siz inanacaqsınız. Məni sosial şəbəkədə tənqid edənlər xüsusi təşkil olunmuş insanların küyünə gedir. Görürlər ki, filankəs pisləyir, fikirləşirlər ki, yəqin pisdir, biz də vuraq. Mən bir-bir qapı döyüb deyə bilmərəm ki, yaxşı insanam, sizin düşündüyünüz kimi deyiləm. Bir dəfə məni təhqir etmiş şəxsin ünvanını tapdım, Sumqayıtdakı evinə getdim. Qapını həmin şəxsin atası açdı, bildirdi ki, oğlu əsgərdir. Həmin əsgərlə danışdım, telefonda üzr istədi. Aparıcı olduğum üçün heç vaxt peşman olmamışam.

***- MTRŞ-nin qərarı ilə sizi "Sevimli şou" verilişindən uzaqlaşdırdılar. Efirə "Sevimli mahnı" ilə qayıtdınız. Yeni verilişiniz əvvəlki kimi sevilir? "Sevimli şou"nun hazırda reytinqi necədir?***

- Böyüklərin (MTRŞ-ni nəzərdə tutur-red.) qərarı ilə mən proqramdan uzaqlaşdırıldım. "Sevimli mahnı" "Sevimli şou" qədər sevilmir. Böyük kütlə, xüsusilə, bölgə sakinləri "Sevimli şou"nu sevirdi. Orada istifadə etdiyim sözlər, göstərdiyim şou insanlara doğma idi. Hazırda "Sevimli şou"nun aparıcısı Ramil Əliyevdir, onunla yaxşı münasibətimiz var, gözəl insandır. Reytinq məsələsindən danışmaq istəmirəm. Bəlli məsələdir.

***- Verilişlərinizin bu qədər tənqid olunmasının səbəbi nədir?***

- Deyirlər ki, toyxanaya oxşayır. Mən şou proqram aparıram, şouda nə edərlər? Oynayarlar, oxuyarlar. Türkiyə telekanallarının verilişlərində bütün millət ayaq üstə oynayır. Oynamaq qəbahətdir? O oynayanlar kiminsə anası, atası, bacısıdır. Mən yanlış nəsə göstərmirəm, "Sevimli şou"ya 500-600 adam gəlirdi. İndi "Sevimli mahnı"ya gəlmir.

***- Belə başa düşdüm ki, tamaşaçı Mikayılın apardığı "Sevimli şou"nu istəyir?***

- Bəli, istəyir. Çünki o proqram onlara əziz idi. Böyüklərin (MTRŞ-ni nəzərdə tutur-red.) məsləhəti ilə razılaşmaq bizim borcumuzdur.

***- "Parni iz Baku", "Bu şəhərdə" komandaları sizi parodiya edib. Onlardan incimədiniz?***

- Bundan gözəl fəxarət ola bilər? Bu gün Azərbaycan yumor səhnəsinin krallarının məni parodiya etməsi mənə xoşdur. Onlar böyük kütləni ətrafında cəmləyə bilir, xalqın sevimli nümayəndələri Mikayılı parodiya edirsə, bu addım mənə şərəfdir. "Bu şəhərdə"nin konsertinə ailəmlə getmişdim, həzz aldım.

***- Bir az da kişi həmkarlarınızdan danışaq. Müsahibələrinizin birində demişdiniz ki, "Nazlı kişi həmkarlarımı qıracağam". Hələ də fikrinizdə qalırsınız?***

- Bir şeyi bilmək lazımdır ki, gün gələr səsin tutular, ayağını itirərsən, od düşər üzün yanar və efirlik olmazsan. Teleaparıcı elə simada olmalıdır ki, sabah televiziyadan uzaqlaşanda satıcı, fəhlə işləyə bilsin. Məsələn, müğənni və ya aparıcı olmusan. İş elə gətirib ki, sənətini dəyişmisən. Silikon dodaq, botokslu üzlə satıcı, sürücü işləyirsən. Elə satıcı, sürücü olar? Ona görə insan hər zaman simasını qorumalıdır. Bu fikirlər hər kəsə aiddir. Mənim həmkarlarım ilə problemim yoxdur. Əksəriyyəti ilə dostam. Onlar da məni yaxşı tanıyır, onlara irad bildirməyim doğru olmaz. Zaur Kamalın tərzini çox xoşlayıram. Uzun illərdir Zaur Baxşəliyevi tanıyıram. Şəxsi tanışlıqğım olmayanlara da hörmətim var.




**"Deyirlər, verilişin toyxanaya oxşayır. Mən şou proqram aparıram, şouda nə edərlər? Oynayarlar, oxuyarlar. Oynamaq qəbahətdir?"**

***- Müsahibədən öncə söhbət zamanı dediniz ki, şou-biznes adamı deyilsiniz. Sənətçilərlə işləmək çətin deyil? Onlarla aranızda hansı çərçivələr var?***

- Münasibətimizə sərhəd qoymamışam, əlaqələrimiz yaxşıdır, heç kimlə düşmən deyiləm. Bəzən olur ki, arada sözgəzdirən insanlar münasibətləri pozmaq istəyir, amma heç nə alınmır. İnsan hər kəsi, hər şeyi sevməlidir. İnsan ömrü çiçəyə bənzəyir, bir gün solur. Sabah solacağıqsa, niyə qəlb qırırıq? Ay bədbəxt, yaşa da, de, gül, niyə düşmənçilik edirsən? Hər şeyi yaxşı görmək lazımdır.

***- Televiziyada nəyi dəyişmək istərdiniz?***

- O, mənim haqqım deyil. Sadəcə, anlamaq lazımdır ki, tamaşaçı nə istəyirsə, onu verməlisən. Düzdür, aparıcı kütləni arxası ilə aparır, onların savadlanması, milli dəyərlərə sahib çıxması istiqamətində yönləndirir. Amma böyük axına qarşı üzmək olmaz.

***- Aparmaq arzusunda olduğunuz proqram varmı?***

- Hansı veriliş olsa, apara+ram, savadsız deyiləm, məktəbi, universiteti əla qiymətlərlə bitirmişəm. Müəllimlərim də təsdiq edə bilər ki, gözəl ssenarilər yazmışam. Başqa aspektdə olan veriliş apara bilərəm, amma mənim ürəyimdən gələn şoudur. Şou proqramda evdə balalarıma qarşı necə oluramsa, tamaşaçı ilə də elə rəftar edirəm. Balalarım üçün evdə dombalaq aşıram, it, pişik oluram, obrazlara girib nağıllar danışıram. 37 yaşım olacaq, hələ də 7 yaşımdakı kimi ərköyünəm. Balalarımla bərabər evdə anama, həyat yoldaşıma ərköyünlük edirəm. Mən heç vaxt dəyişmərəm, Allah qismət etsə, 60 yaşımda da şou proqram aparacağam.

***- Hansı yerli proqramları izləyirsiniz?***

- Mənim verilişim tipli proqramları daha çox izləyirəm. Zaur Kamalın "5/5", "Ay Zaur", Zaur Baxşəliyevin, Azər Axşamın proqramlarını izləyirəm. Proqramlara hər yönümdən baxıram. Adlarını çəkdiyim aparıcılar peşəkardı, mən olmayanda onlar vardı.

***- Siyasətlə maraqlanırsınız? Siyasi yönünüz nədir?***

- Siyasətlə maraqlanmıram, qarışmıram. Hazırda yaşadığımız Azərbaycandan çox razıyam.

***- Xarici ölkələrdə sənət adamları siyasətlə məşğul olmağı, ölkədə baş verən siyasi proseslərə fikir bildirməyi normal sayır. Bizdə isə hamı siyasətdən oddan qorxan kimi qorxur.***

- Qorxmuram, çəkinmirəm. Siyasətdən xəbərsizəm. Hər halda hər şey gözəldir.

***- Efirdən kənarda Mikayıl necə biridir?***

- Sadə insanam, insanlara qarşı səmimi olmağa çalışıram. Mürəkkəb olub nə edəcəyəm? Bəzi sənətçilərə qarşı səmimi olan zaman elə bilirlər ki, Mikayılın onlara borcu var. Yenə də gülüb keçirəm. Yaxınlarımı itirdikdən sonra anladım ki, təkəbbürlü olmağa dəyməz. Zaman qısadır, bəlkə sabah öləcəyəm.

***- Bəzi sənət adamları, teleaparıcılar bildirirlər ki, göz önündə olmaqdan, məşhurluqdan bezirlər, insanlar arasında rahat gəzə bilmirlər. Onların fikirlərinə münasibətiniz necədir?***

- Cəmiyyət içərisində kimsə səni tanıyırsa, deməli, xoşbəxtsən. Onlar süni danışır. Mən bazara da, maketə də gedirəm, insanların içərisində olmaq xoşdur. Kimsə mənimlə foto çəkdirirsə, deməli, xoşbəxtəm. Bəzən deyirlər ki, filan yerdə oturma, sənə yaraşmaz. Orada oturan adamdan artıq deyiləm, o insanlarla məni yalnız peşəmiz ayırır, mənə Allah şans yaradıb, efirdə görünürəm, o isə fəhlədir. Mən bu üstünlüyümə görə təkəbbür göstərsəm, cahil insan olaram.

***- İki qız atasısınız. Övladlarınızın tərbiyəsi ilə kim məşğul olur?***

- Övladlarımın birinin 3, digərinin 5 yaşı var, onların nazlanmaq, əzizlənmək vaxtıdır. Uşağı tənbeh etmək, vurmaq da olar, amma bunları qanan vaxtı edərlər. İndi qızım mənə "ata, it ol" deyir, ona nəyi başa sala bilərəm? Övladlarımla əsasən həyat yoldaşım məşğul olur, mən də asudə vaxtlarımı onlarla keçirirəm. Mən əziyyətli uşaqlıq keçirsəm də, övladlarım deyəcək yaxşı uşaqlıq keçiriblər. Onlar beşikdən qalxana qədər ev aldım, maddi durumumu düzəltdim. Səhər 6-da Ağcabədidən toydan gəlib, 2 saat yatıb, Sabirabada toya gedirdim. Səhər efirə çıxırdım. Tamaşaçının nəyinə lazımdır ki, mən iki toyda olub, yorulmuşam. Efirə çıxıb oynayıb, deyib-gülmüşəm. Bəzən yorğunluqdan sükan arxasında yatmışam. Allah məni qoruyub. Düşünürəm ki, övladlarım üçün yaxşı atayam.

***- Eyni zamanda, yaxşı həyat yoldaşısınızmı?***

- Əlbəttə, yaxşı ərəm. Hər ailədə söz-söhbət ola bilər, mübahisə düşər, hər gün can deyib, can eşitmək olmaz, bir gün zəhrimar deyirsən. Allah ailə arasına xəyanət girməsindən qorusun. Həyat yoldaşıma heç vaxt xəyanət etmərəm. Deyirlər ki, insan heç nədən sığortalanmayıb. Xəyanət məsələsi buraya aid deyil. Xəyanətdən sığortalana bilməyən evlənməsin. Mən eyni zamanda yaxşı övladam. Zamanında qapıdan-qapıya köçmüşük, kirayə qalmışıq, valideynlərim əziyyət çəkib, anam xəstəlik tapıb. Əziyyət görən valideynlərimi yaxşı şəraitdə yaşadıram. Atamı 6 ildir işləməyə qoymuram. Allah mənə oğul övlad qismət etsə, mənə oxşasın, o zaman xoşbəxt olaram.

***- Bəs övladlarınızın teleaparıcı olmasını istəyərsiniz?***

- Oğlum olsa, istəyərəm, qızımın bu sahədə olmasını istəmirəm. Allah qızı zərif, kəsik yaradıb. Mənimlə qadın müğənni yoldaşlar məcburiyyətdən toylara gedir, evlərinə gecə saatlarında qayıdırlar. Balasını böyütməlidir, ona görə bu məşəqqətlərə dözür. Qızım niyə əziyyət çəksin? Qız xoşbəxt olmalıdır. Mən şair deyiləm, amma qızlarıma "Qızım gəlin köçəcək, mən hələ yatmamışam" şeirini yazmışam. Uşaqlarım olandan kövrək olmuşam, filmə baxıb ağlayıram. Yeganə varlıq övladdır ki, insan onun üçün ölümə gedər.

***- Bir az da toylardan danışaq. Devalvasiyadan sonra toyların sayı azalıb, sənət adamları da Vergilər Nazirliyinin vergi tələb etməsindən sonra getdikləri el məclislərini gizlədir. Deyirlər, Mikayıl da toya yüksək qonorara gedir.***

- Vergimi vaxtında ödəyirəm. Əgər qazanıramsa, vergimi ödəməliyəm. Haqqımda absurd şeylər danışırlar. Bir adama qiymət deməmişəm, kimin imkanı nəyə çatır, o qədər verib. 100 manat da, 1000 manat da versələr, gedirəm. 100 manat alanda da şükür etmək lazımdır, heç kim adama havayı 20 qəpik də vermir. Əsas odur ki, insanı istəyib toya dəvət edirlər, vay o günə ki, gözdən düşəsən, səni sevməyələr. Efir adamı üçün xalqın gözündən düşməyi fəlakət sayıram. Bu sahə elədir ki, zaman gəlir, dəbdən düşürsən. İnsanın qazanc yeri olmalıdır.

***- Həmkarlarınız özünü aktyor kimi sınayır. Aktyorluq arzunuz var? Mikayıl hansı obrazı canlandıra bilər?***

- Yaxşı aktyor ola bilərəm. Çünki maraqlı kitablar oxuyur, filmlər izləyirəm. Aktyorluq etməyə zaman lazımdır. Film insanın vaxtını alır. Bəlkə də, vaxt gələcək aktyorluq edəcəyəm, bəlkə də özüm film çəkəcəyəm, nə bilmək olar. O vaxt övladlarımı yerbəyer edəndən sonra olacaq. Hazırda işim yuvam, övladlarım üçün çalışmaqdır. Mənfi obrazı oynamaq istəmərəm, mülayim adamam, istəmirəm məni mənfi görsünlər. Ata obrazını oynayaram. Sevgili obrazını da yaradaram, amma evdə problemlə üzləşərəm. Həyat yoldaşım qısqanar.

***- Həyat yoldaşınız çox qısqancdır?***

- Həyat yoldaşım məndən 12 yaş kiçikdir. Sevgi, hörmət olan yerdə qısqanclıq olur. Ona qarşı da ərköyünlük edirəm, istəyirəm mən deyən olsun. Məndən kiçik olsa da, məni anlayır, dəstək olur, kaprizimə dözür.

***- Hazırda sosial şəbəkələr həm də PR vasitəsidir. Siz isə heç bir sosial mediada yoxsunuz.***

- Heç birində yoxam. Həyat yoldaşım da istəmir ki, girib orada yazılanı oxuyum. Mənim reklama ehtiyacım yoxdur. Apardığım verilişdə reklam olunuram. Başqa bir reklam lazım deyil.

❑ **Könül İBRAHİM**
**Foto: Məğrur MƏRDİNDİR**

YENİ MÜSAVAT
N 94 (6415) 2 may 2016

# Astroloqlardan Qarabağ proqnozu - "Biz indi Şuşanı tutsaq..."

**Firudin Qurbansoy:** "Əgər kimsə "Qarabağ filan ildə azad olunacaq" deyirsə, bu, ola bilməz"

**Səbuhi Rəhimli:** "Müharibəsiz qələbə mümkün deyil"



**Son bir ayda cəbhə xəttində baş verənlərlə bağlı çoxlu sayda siyasi ekspertlər, politoloqlar öz proqnozlarını, rəylərini bildirməkdədirlər. Bəs görəsən astroloqların proqnozu necədir?**

Tanınmış astroloq Firudin Qurbansoy bu barədə "Yeni Müsavat"a danışıb. Astroloq Qarabağın hansısa tarixdə azad olunacağı barədə proqnoz bildirənləri qınayıb: "Əvvəla, bu məsələdə işlədilən savaş sözünə etirazım var. Savaş sözlə söyüşmək deməkdir. "Sav" sözü türk dilində söz deməkdir. Vuruşmaq əllə yumruq vurmaqdır. Dalaşmaq da ağacla bir-birini vurmaqdır. Bu mənada savaş sözü doğru olaraq işlədilmir, amma biz ondan istifadə edirik. Əslində müharibə edirik. Bu iki xalqın, iki dövlətin üz-üzə durmasıdır və əlbəttə ki, xüsusi bir tələdir. Xalqımız öz iradəsindən asılı olmayaraq bu tələ-hengaməyə düşüb. Bu həngamədən çıxış yollarını isə ancaq ağıllı başlar həll etməlidir. Ağıllı başların bir yerdə bir məcraya gəlməsi və dünyadan bizdən nə istədiklərini bilməyimiz və özümüzə az zərər verməklə bu oyunlardan çıxmağımızı planlaşdırmaqdır. Başqa bir şey yoxdur. Biz indi Şuşanı tutsaq da yuxarıdan gözlərini bərəldəcəklər ki, çıxın oradan və biz çıxacağıq. Çünki biz superdövlətlərlə vuruşmaq iqtidarında deyilik, bu məsələdə onların maraqları həll olunur. Burda da astroloqların hansısa söz deməyə yeri yoxdur. Əgər kimsə "Qarabağ filan ildə azad olunacaq" deyirsə, yalan deyir, ola bilməz. Ona görə də biz sadəcə olaraq xalqımızın mənafeyini düşünməliyik. Hamımız eyni anda, eyni şeyi istəməliyik. Bu saat televiziyalarda, mətbuatda xalqın fikrini bu arzudan uzaqlaşdırırlar. Bu indi deyil, hələ 1988-ci ildən belədir. Bir ara camaat bir yerə gəldi, sonra o enerjidən qorxdular. Calışıldı ki, hər kəs öz məişət problemləri ilə məşğul olsun, getsin uşaqlarını dolandırsın. Yəni o milli fikirlər bu saat arxa plandadır və heç kəsdə ön planda deyil, bir-iki nəfəri çıxmaq şərti ilə. Bu mənada bu məsələ astrologiyanın işi deyil".

Astroloq Səbuhi Rəhimli isə ilin ortasında proqnoz vermədiyini, lakin tez-tez cəbhə bölgəsinə gedərək ordakı situasiyaları öyrənməyə çalışdığını bildirdi: "İlin əvvəlində proqnozlarımı demişdim. Proqnozumda daha uzun müddətli döyüş olacağını bildirmişdim. İlin ortasında situasiyalara uyğun proqnozu dəyişmirəm. Çünki onu hesablamaq lazımdır. Ona görə özüm cəbhə bölgəsinə gedib, sosial şəbəkədə fotolar paylaşıram. Situasiyanı vətəndaş kimi öyrənməyə çalışıram. Hələ 2001-ci ildən demişəm ki, 2012-2020-ci illər arası məsələ həll olunacaq, üstünlük bizdə olmaqla".

Münaqişənin hərb, yoxsa sülh yolu ilə həll olunacağı ilə bağlı astroloq bu cür proqnoz bildirdi: "Bunu yaşayırıq, görərik. Müharibəsiz qələbə mümkün deyil".

❑ Xalidə GƏRAY

# Müharibə şəraitində olan ölkədə toy-konsert qadağan olunmalıdırmı?

**Məşhur italiyalı müğənni Eros Ramazzottinin ötən həftə Bakıda verdiyi konsert qızğın müzakirələrə yol açıb. Buna da səbəb konserti izləməyə gələnlər arasında dövlət rəsmilərinin olmasıdır. "Crystal Hall"da baş tutan konserti izləməyə gələnlər arasında xarici işlər naziri Elmar Məmmədyarov və AZAL-ın prezidenti Cahangir Əsgərov da olub.**

Son günlər Qarabağda vəziyyətin gərginləşdiyi bir vaxtda dövlət rəsmisi sayılan nazirin (AZAL prezidenti hökumətin tərkibində deyil-red) əyləncəyə vaxt ayırması sosial şəbəkələrdə ciddi tənqid olunub. Həmçinin bu hərəkəti müxtəlif kollaj və karikaturalarla əksini tapıb. Sosial şəbəkə istifadəçiləri hazırda əyləncə və istirahətdənsə, döyüşə köklənməyin vacib olduğunu qeyd ediblər.



**Sosioloq Əhməd Qəşəmoğlu:** "Çalışmaq lazımdır ki, bu məsələlərə qarşı bir saygı mədəniyyəti formalaşsın"



**Psixoloq Dəyanət Rzayev:** "Müharibə rəsmən elan ediləndə cəmiyyət ona uyğun hərəkət edəcək"

Ümumiyyətlə, cəbhə xəttində yaşanan gərgin vəziyyətlə əlaqədar bir çox insanlar özlərini müxtəlif konsert və toylardan məhrum ediblər. Çünki bir qisim insan bunun yanlış olduğunu düşünür. Bəs əslində necə olmalıdır? Atəş və top səslərinin kəsilmədiyi bir vaxtda insanların, xüsusən də dövlət rəsmilərinin əyləncələrindən qalmaması nə dərəcədə doğrudur?

Sosioloq Əhməd Qəşəmoğlu bu məsələlərə saygı duymağın vacib olduğunu bildirdi: "Bu məsələlərə saygı duymaq lazımdır. Amma ölkəni başdan-başa matəm ölkəsinə çevirmək də düzgün deyil. Bu baxımdan mən bəzi rayonlarımızın düşmən tərəfindən alındığı gündə toylara dəvət alanda özümü çox pis hiss edirəm. Fərz edək ki, Laçının, Şuşanın və digər rayonlarımızın alındığı gün toyların keçirilməsi məni üzür. Yaxud da aprelin əvvəlində müharibə barəsində ictimaiyyətdə daha geniş məlumat var idi. Onda da mən bir toya getmişdim. Gördüm ki, özümü çox narahat hiss edirəm. Ona görə də toyda 1 saat oturub çıxdım. İnsanlara bu cür qadağalar qoymaq düzgün deyil. Sadəcə olaraq, çalışmaq lazımdır ki, onlarda bu məsələlərə qarşı bir saygı mədəniyyəti formalaşsın. Biz bu istiqamətdə iş aparmalıyıq. Yoxsa ki, "filan yerə getmək olar, ya olmaz" doğru deyil. Sadəcə olaraq, bu, mədəniyyətin və mənəviyyatın bir komponentidir. Bir tərəfdə ağır, ölkə üçün xoşagəlməz günlərdirsə, aşırı kef eləmək mədəniyyət və mənəviyyat çərçivələrinə sığmır".

Psixoloq Dəyanət Rzayev müharibə rəsmi elan ediləndə cəmiyyətin də ona uyğun hərəkət edəcəyini dedi: "Ölkədən, ənənələrdən və mentalitetdən də çox şey asılıdır. Müharibə rəsmi elan olunmayıb. Müharibə rəsmi elan edildikdən sonra cəmiyyət ona uyğun hərəkət edəcək. Məsələn, birinci Qarabağ müharibəsi necə idi? Rəsmi müharibə gedirdi və hər kəs də buna hazır idi. Elan olunmasa da gedirdi. İndi isə qeyri-müəyyən bir vəziyyətdir. İndi müharibədir, ya deyil bəlli deyil. Sadəcə olaraq atəşkəs pozulur, vəssalam. Düzdür, döyüşlərdə kimsə dünyasını dəyişəndə, şəhid verəndə təbii ki, adət ənənəyə uyğun olaraq matəm etmək olar. Hazırda rəsmi müharibə elan olunmadığı üçün hansısa tədbirlərə, toylara qadağa nə dərəcədə düzgün olardı? Hazırda sadəcə atəşkəsin pozulması gedir, müharibə deyil. Müharibədirsə, əgər dövlət bunu rəsmi elan etməlidir. Rəsmilərin hansısa konsertdə olası şəxsi işidir və bunu qınaq obyektinə çevirmək, qınamaq düzgün olmazdı".

Psixoloq matəmin insanlarda ruh düşkünlüyü yarada biləcəyini dedi: "Rəsmi müharibə gedəndə belə konsert kollektivləri cəbhə bölgəsinə gedirdi. Məsələn, birinci Qarabağ müharibəsində müğənnilər sərhəd bölgəsinə gedib konsert verirdilər. Matəm elan etmək insanları pessimizmə aparır. Əksinə mənə elə gəlir ki, ruh yüksəkliyi olan tədbirlər keçirilməli, mahnılar oxunmalıdır ki, insanlarda ruh yüksəkliyi yaransın. Qarabağda qısaca da olsa atəşkəs pozulur. Biz qalıb gəlirik, ermənilərin itkisi daha çox olur. Əksinə biz sevinməliyik ki, azda olsa torpaqlarımızdan ala bilmişik. Ona görə də matəmdə olmaq yaxşı deyil. İnsanlar bu gün istəyir ki, biz Qarabağı bütövlükdə alaq. Məsələn Lavrov tələb edir ki, Azərbaycan atəşkəs rejiminə keçməli, sülh danışıqları aparmalıdır. Axı sülh danışıqları bir fayda vermir. Bəlkə də atəşkəsin pozulması bizim xeyrimizədir ki, hər dəfə ermənilər atəşkəsi pozanda öz torpaqlarımızdan az da olsa qaytarırıq".

❑ Günel MANAFLI



# Gədəbəy İcra Hakimiyyəti döyülən şəxsin xəstəxanaya yerləşdirilməsini yasaqlayıb

**Natiq Ələkbərov:** "Məmmədov qardaşları pullarına, İcra Hakimiyyətinə arxayın olub istədikləri qanunsuzluğu edirlər"

**Gədəbəyin Arıqıran İnzibati Ərazi Dairəsində(İƏD) yaşayan Natiq Yaqub oğlu Ələkbərovu döyüb, boğublar. Onu döyənlərin əlindən zorla çıxan N.Ələkbərov sonrdan daha böyük haqsızlıqlarla üzləşib. N.Ələkbərov redaksiyamıza etdiyi şikayətdə bildirir ki, onu öldürmək istəyən Məmmədov qardaşlarının arxasında dayananlar Gədəbəyin İcra Hakimiyyətinin rəhbərliyində təmsil olunurlar:**

"Aprelin 28-də Rabil və Əli Məmmədov qardaşları məni döydülər. Boynuma kəndiri salıb boğmaq istədilər. Məni öldürmək istəyirdilər. Zorla əllərindən çıxa bildim. Daxili İşlər Nazirliyin 102 xidmətini yığmaq istədim, telefonumu əlimdən alıb palçığın içinə atdılar. Bundan 2 gün əvvəl isə üstümə maşın sürmüşdülər. Döyüldüyüm gün birtəhər evə gəldim. Qardaşım oğlu təcili yardım çağırdı. Gədəbəy Rayon Xəstəxanasına aparıldım, orada yardım göstərdilər. Vəziyyətim ağır olsa da, xəstəxanada məni saxlamaqdan imtina etdilər. Bizimlə düşmənçilik edənlər Rabil, Əli, Ramil və Akif Məmmədov qardaşlarıdır. Atam Yaqub Ələkbərov balıq gölü düzəltmək üçün Arıqıran İnzibati Ərazi Vahidliyində torpaq sahəsi almışdı. Torpağımızı İcra Hakimiyyətindəki havadarları vasitəsi ilə zəbt elədilər. Bundan əvvəl mən meşədə gözətçi işləyirdim. Həmin vaxt meşə ərazisində Rabil Bəybala oğlu Məmmədov "budka" tikirdi. Meşənin ərazisi olduğuna görə qanunsuzluq barədə Meşə Təsərrüfatı İdarəsinə məlumat verdim. Bildirdim ki, tikintinin dayandırılması haqda tələblərimi saymırlar. Məlumatı verdiyimə görə Rabil Məmmədov və qardaşları Əli, Ramil və Akif bizimlə düşmənçilik aparmağa başladılar. Məni və atamı təhqir etməyə, söyməyə başladılar. Məni 2 dəfə döydülər".

Natiq Ələkbərov deyir ki, Məmmədovların Rayon İcra Hakimiyyətinin rəhbərliyi ilə yaxşı münasibətləri var və xəstəxanaya qəbul olunmamasını xəstəxanaya icra hakimiyyətindən verilən göstərişlə izah edir: "Məmmədovların böyük qoyun sürüləri var, sahibkardırlar. 4 qardaşın 3-ü dövlətdən heç bir əsas olmadan pensiya alır. Arıqıran İƏD-in sədri Zahir Qarayev Məmmədovların xalası oğludur. Onun vasitəsi ilə bizə məxsus torpaqda göl düzəldirlər. Biz də şikayət edirik. Mənə Məmmədovlar açıq şəkildə deyirlər ki, pul bizdə, adam bizdə, İcra Hakimiyyəti bizim arxamızda. Mən də xəstəxanaya getdim, qəbul etmədilər. Ərizə yazıram baxmırlar. Görürəm ki, Məmmədovların dedikləri düz çıxır. Pulları da var, adamları da. Bizim kimi kasıb adamları əzirlər, haqqımızı yeyirlər. Gədəbəy xəstəxanasında məni qəbul etmədilər, məcbur olub Şəmkir Rayon Xəstəxanasına getdik. Orada da məni götürmədilər. Yəqin ki, buranın icrasından tapşırmışdılar deyə götürmədilər".

Natiq Ələkbərov deyir ki, onu 2015-ci ilin yanvarında işdən çıxarıblar: "Meşə gözətçisi idim. Yazdılar ki, guya iş vaxtı ərazidə olmamışam. Halbuki yanvar ayında Gədəbəy meşələrində 1 metr qar olur. Həmin şəraitdə meşədə hansı qanunsuzluq ola bilər? Məni Məmmədovlar İcra Hakimiyyətindəki adamları vasitəsi ilə işdən çıxarıblar. Bu adamlar Gədəbəyin İcra Hakimiyyətinə arxayın olub istədikləri qanunsuzluğu edirlər. Məni döyüblər, boğublar, atamı təhqir ediblər, torpağımızı əlimizdən alıblar, Gədəbəyin hüquq-mühafizə orqanları şikayətlərimizə baxmır. Döyülməyimlə bağlı ərizəmi alıblar, amma heç bir tədbir görmədilər. Deyirlər ki, guya 2 qardaş məni döyəndə onlara daha ağır xəsarət yetirmişəm. Mən 2 nəfəri necə döyə bilərəm? 3 övladım var, biri əsgərlikdədir, vətəni qoruyur. Bu vətəndə bizim haqqımız, hüquqmuz yoxdurmu?"

Natiq Ələkbərov hüquq-mühafizə orqanlarından üzləşdiyi qanunsuzluqla bağlı ölçü götürülməsini, obyektiv araşdırılma aparılmasını xahiş edir.

❑ E.MƏMMƏDƏLİYEV

**P.S.** *Yazıda adı hallanan hər kəsi dinləməyə hazırıq.*

# "Azpetrol" və Rafiq Əliyev Moldovadakı korrupsiya qalmaqalında



## Şirkət və onun keçmiş sahibi məhkəmə araşdırmasında mərkəzi fiqur kimi keçir...

**Moldova, Ukrayna və Rumıniyadan olan araşdırmaçı jurnalistlər qrupu Moldovanın Curculeşt limanı layihəsinin həyata keçirilməsi ilə bağlı araşdırma aparıblar. Virtualaz.org xəbər verir ki, araşdırmanın nəticələri təkcə moldovalı siyasətçilər üçün deyil, eyni zamanda, İsveçrə və Hollandiya şirkətləri, habelə Avropa Yenidənqurma və İnkişaf Bankının əməkdaşları üçün qalmaqallı olub.**

Üstəlik, antikorrupsiya araşdırmasında mərkəzi fiqurlardan biri kimi "Azpetrol" neft şirkətinin və onun keçmiş sahibi, sabiq iqtisadi inkişaf naziri Fərhad Əliyevin qardaşı Rafiq Əliyevin də adı keçir. Bu araşdırmanın nəticələrini anticoruptie.md portalı dərc edib.

Curculeşt limanı biznes-layihəsi hələ 1993-cü ildə işlənib hazırlanıb. O vaxtkı baş nazir Andrey Sanqeli hökumət üzvlərinə Prut və Dunay çaylarının mənsəbində liman inşası layihəsini təklif edib. Layihənin reallaşması üçün hökumət 25.5 milyon dollar kredit götürüb. Lakin 10 il keçəndən sonra məlum olub ki, nəzərdə tutulan işlərin cəmi 30 faizi görülüb.

2004-cü ildə kommunistlərdən ibarət Moldova hökuməti yarımçıq layihəni bərpa edib, bu məqsədlə Azərbaycanın "Azpetrol", "Azertrans" və "Azpetrol Rafinery" şirkətləri ilə müqavilə bağlanıb. Bu şirkətlərin hər üçü əslində Bakıda qeydiyyatdan keçmiş "ana" şirkətin törəmələri idi. Həmin şirkət liman layihəsinin başa çatdırılması üçün 250 milyon dollar investisiya təklif edib. Bundan başqa azərbaycanlı investorlar Avropa Yenidənqurma və İnkişaf Bankı qarşısında kredit öhdəliyini də bağlamalı idi. İnvestorlar habelə Moldovada, Curculeşt limanı yaxınlığında neft terminalının tikintisini də həyata keçirməyi vəd ediblər.

Ancaq indi kommunistlər Moldovanın keçmiş prezidenti Marian Lupunu və keçmiş nazir İqor Dodonu ittiham edirlər ki, limanın tikinlinin başa çatdırılmasından sonra istismarını sərfəli olmayan şərtlərlə xarici şirkətə veriblər. Curculeşt limanına dair investisiya müqaviləsi 2004-cü ilin dekabrında imzalanıb, ancaq müqaviləni bu yaxınlarda keçmiş deputat, kommunist Aleksandr Petkov ilk dəfə dərc edib.

Kommunistlər deyir ki, liman hazırda tanınmış moldovalı oliqarxın nəzarətindədir. Söhbət ölkədə hakimiyyətə yiyənlənmək istəyən Vladimir Plaxotikdən gedir. O, limanı Amerika vətəndaşlığı daşıyan partnyoru,"Trans-oil İnternational SU" şirkətinin sahiblərindən biri Vaju Djaşinin adına keçirib. Jurnalistlər isə müəyyən ediblər ki, Curculeşt limanı ilə bağlılığı olan əsas biznes-fiqur Tomas Mozer və Hollandiya şirkəti "EASEUR Holding BV"-dir. Həmin Tomas Mozer kimdir?

O, Almaniyanın İnkişaf Bankında işləyib, 1996-cı ildən isə Avropa Yenidənqurma və İnkişaf Bankında işə keçib. Üç il sonra o, bank prezidentinin dəftərxanasında işləməyə başlayıb. 2001-ci ildə isə Mozer bankın Bakı nümayəndəliyinin rəhbəri təyin olunub. 2003-cü ildə isə Fərhad və Rafiq Əliyev qardaşları Mozeri "Azpetrol"da departament rəhbəri vəzifəsinə gətiriblər. Həmin vaxtlar Əliyev qardaşları "Azpetrol" şirkətinin sahibləri idi.

2005-ci ildə Rafiq və Fərhad Əliyev qardaşları dövlət çevrilişinə cəhddə ittiham olunub, uzunmüddətli həbs cəzasına məhkum ediliblər. Araşdırmalar göstərir ki, Rafiq Əliyevin həbsindən dərhal sonra "Azpetrol"un rəhbərliyinə Tomas Mozer gətirilib. Eyni zamanda o, "Azertrans" və "Azpetrol Rafinery" şirkətlərinə də rəhbərliyi həyata keçirməyə başlayıb. Bir müddət sonra o, şirkətlərin adını dəyişib və müvafiq olaraq "Bemol Retail", "Bemol Rafinery " və "Danube Logistics" adlandırıb.

Sonralar Tomas Mozer Qətər KİV-lərinə açıqlamasında Moldovada neft terminalının tikintisi layihəsindən bəhs etmişdi. Əslində onun Curculeşt limanı layihəsinə marağı qanuni sayıla bilərdi. Çünki Avropa Yenidənqurma və İnkişaf Bankında işləyərkən bu layihəyə kredit ayrılmasına dair danışıqlar aparmışdı, bütün detallardan xəbərdar idi.

Moldova hökuməti ilə bağlanmış investisiya layihəsinə əsasən Curculeşt limanından daşınan neft və neft məhsulları gömrük rüsumlarından və ƏDV-dən azad edilirdi. "Azpetrol" ("Bemol") şirkətinə icazə verilirdi ki, benzin və dizel satışına görə ixrac ƏDV-ni alsın. Şirkət habelə aksiz vergilərindən azad idi. Bütün bu güzəştlərə baxmayaraq, şirkət Moldovada benzini və dizeli bazar qiymətinə satırdı.

2011-ci ildə Hollandiya şirkəti "EASEUR Holding BV" iri məbləğdə borclardan yaxa qurtarmaq üçün Rafiq Əliyevin şirkəti "New Ventures Capital"ı inandırır ki, "Credit Suisse" bankı qarşısında kredit öhdəliyini bağlasın. Razılaşmaya əsasən borcun bağlanmasının əvəzində "Credit Suisse" və Tomas Mozer tərəfindən yaradılan "Danube Logistics Holding BV" adlı şirkət hollandiyalılardan "Danube Logistics SRL" şirkətinin səhmlərinin 80 faizini alıb. Habelə "EASEUR Holding BV" və "Azpetrol" ("Bemol Retail SRL") şirkətlərinin borclarına sahib çıxıb. Bu aktivlərin əvəzində "Danube Logistics Holding BV" şirkəti "EASEUR Holding BV" şirkətinin "Credit Suisse" bankından götürdüyü 36.1 milyon dollarlıq borcunun ödənilməsini üzərinə götürüb. Lakin 2015-ci ildə "Danube Logistics" və "EASEUR Holding" arasında fikir ayrılığı yaranıb, iş məhkəmə çəkişməsinə qədər uzanıb. Məhkəmə hələ də davam edir.




**Kişilər!!! Axırıncı şans!!!**

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağıdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi** (***enurez***)
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, qulunclarn dərmansız müalicəsi

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**

**Elan**

**Amerika və Kanadada təhsil və səyahət üçün bizə müraciət edə bilərsiz.**
**e-mail: travelaz2016@gmai.com**
**whatsapp: +1 845 300 7030**
**Tel: +99451 635 2408**

**Montində, Nərimanov Məhkəməsinin həyətində 2 maşınlıq daş qaraj satılır.**

**Obyekt kimi də istifadə etmək olar. Pultla idarə olunan jalüz qapıları var. Tavanı lambrin, döşəməsi tametdir. Ayrılıqda da istifadəyə yarayır. Sahibindən satılır, qiyməti bazar qiymətindən ucuz. Sənədi var.**

**Əlaqə nömrəsi (050) 264 49 99**

**Yenilik! Rusiyada təhsil almış və Moskvada müdafiə etmiş**
tibb elmləri namizədi, təcrübəli həkim
**Darya İvanovna**

**varikoz və postvarikoz trofik yaraları, habelə diabetik yaraları özəl metodika ilə, cərrahi müdaxiləsiz müalicə edir.**
**Tel (051) 634-40-01.**

YENİ MÜSAVAT
N 94 (6415) 2 may 2016

# Bu peşələri seçmisinizsə... sizə zaval yoxdur

## Dünyanın ən gəlirli peşələri və onlarla uğur qazanmanın sirləri

**Günümüz qəpiyi qəpiyə calamaqla keçir. Nəyi necə xərcləyək, alaq ki, uduzmayaq? Arzularımızla məvacibimiz arasında kəskin bir uçurum yarananda... çarəsizlik də bizi yaxalayır. O zaman ən çox təkrarladığımız özünüqınaq isə "mən niyə bu peşəni seçdim" olur. Bəli, zaman-zaman bəzi məsləklər öz qazanc payları ilə fərqlənirlər. Dünən çox gəlirli peşə bu gün çörək vermir və ya əksinə. Bəzi qazanclı peşələr üçünsə ümumiyyətlə, ali təhsil tələb olunmur. Budəfəki yazıda sözügedən mövzunu əhatə etməyə çalışacağıq.**

### Rəqqasə, dərzi, aşpaz - qızıl üçlük...

"Mir 24" kanalı bir neçə il öncə maraqlı bir araşdırma aparmışdı. Həmin araşdırmaya görə, orta azərbaycanlının bəxşiş siyasətinin arxasında maraqlı bir tezis dayanır. Belə ki, insanlarımız "gizlətdiyini öldürərsən, payladığın isə sənə geri qayıdar" deyə düşünür. Yəni azərbaycanlılar xəsisliyin adama vuracağı ziyanı daha böyük hesab edir, nəinki əliaçıqlığı. Şəxsi zövq üçün azərbaycanlılar çox rahatlıqla pul səpələyə bilərlər. Amma "çayevoy" (bəxşiş) qazanmaq üçün öz işinin ustası olmalısan.

Keçmişdə olduğu kimi, indi də dərzilər ən çox gəlir əldə edən peşə sahibləridir. Məsələn, kanalın müsahiblərindən olan Aydan Ağayeva toy paltarları tikən dərzidir. Səxavətli müştərilərin bəxşişləri qarşılığında onların bütün kaprizlərini yerinə yetirməyə hazırdır. Adətən toy paltarları üçün 5 min dollardan artıq almır. Yox, müştəri toyuna cəmi bir neçə gün qalmış "əl-ayağa" düşübsə, bu zaman təcili iş üçün dərziyə 10 min dollar ödəməlidir.

Oksana Rəsulova da restoranlarda hind mahnıları sədaları altında rəqs edən rəqqasədir. Bütün artistlər kimi o da bir gecədə bir neçə şou proqramlarda iştirak etməyə çalışır. Bir gecəlik çıxışlarına görə rəqqasə 1000 dollara yaxın pul qazanır. Gül mağazası satıcılarının üzü də zaman-zaman səxavətli müştərilərin sayəsində gülür. Sevdiyi qadına ən orijinal buketi hazırladan kişilər məmnun qalanda 100 dollara yaxın pul ödəyir.

Müğənnilər və ofisiantlar da bəxşişlərə görə çox qazananların siyahısında yer alır. Daha çox musiqiçilərə yaxşı ifaya görə bəxşiş verənlər kişilər olsa da, son vaxtlar bu siyahıya qadın müştərilər də əlavə olunub. Restoranın daimi müştərilərindən olan qadın respondentlərindən biri deyib ki, ona xüsusi diqqət və qulluq göstəriləndə xoşuna gəlir. Buna görə də ofisianta yaxşı qulluğa, müğənniyə yaxşı ifaya görə bəxşiş vermək istəyir.

Bəxşiş "sektoru" sayəsində modelyerlər, artistlərlə yanaşı, aşpaz və ofisiantlar da yaxşı qazanır. Məhz onlar gündəlik heç də təvazökar olmayan pullar qazanır. Bu isə onunla izah edilir ki, kafe və restoranların müştəri kontingenti gerçək qurmanlardır. Onlar nəfis hazırlanmış bir yeməyə görə səxavətlə pul ödəyir. Bu da şərq mentalitetinə məxsus cəhətdir.

### Kompüteri yaxşı bilmək... qızıl xəzinəsidir?

Dünyada isə mənzərə tamam fərqlidir. Məsələn, ABŞ-ın ən böyük iş axtarma portallarından biri olan careercast.com son illərin ən yaxşı və ən pis peşələrini müəyyən edib. Amma bu il siyahıda adətən "ən yaxşılar" siyahısında görməyə adət etdiyimiz peşələr, demək olar ki, yoxdur.

İqtisadi böhranı, ixtisarları nəzərə alaraq hazırlanan siyahıya bu dəfə həm geniş kütləni əhatə edən, həm sağlamlığı riskə atmayan, az stressli, yaxşı iş şəraiti, müntəzəm gəlir gətirən və böyümə potensialı olan işlər daxil olub. Belə ki, bu ilin ən yaxşı işi kimi sığorta mütəxəssisi seçilib. Daha az fiziki güc, az stressli olması və yaxşı iş şəraiti olduğu üçün bu iş yeri birinci olub. Növbəti yerlərdə isə kompüter mühəndisi, bioloq, tarixçi, riyaziyyatçı, vəkil köməkçisi, mühasib, diş həkimi kimi peşələr gəlir. Portalın ən yorucu və ağır peşə kimi seçdiyi iş gəmiçilikdir. Buna səbəb bu peşə sahiblərinin çox tez yuxudan durması, gündə 12 saata yaxın iş vaxtı, təhlükəli iş şəraiti, şəxsi həyata vaxt ayırmamaq imkanı, fiziki güc tələb etməsi və illik gəlirin az olmasıdır. İlk üçlükdə isə odunçu və dəmirçi peşəsi yerləşir. "Ən ağır işlər" siyahısında sağıcı, qaynaqçı, zibilyığan, taksi sürücüsü, inşaat işçisi, santexnik, poçtalyon və digər peşələr var.



Maraqlıdır, bəs bir çox sahələrin reytinq mütəxəssisi "Forbes" jurnalı nə deyir? Əmək bazarında ən tələbli və tələbsiz olan peşələrin onluğunu hazırlayan jurnal yazıb ki, gözlənilmədən "Top-10"a sosial və sığorta şirkətləri üçün zərər və konpensasiyaların hesablanması ilə məşğul olan aktuarist sənəti rəhbərlik edib. Bu peşə iş yerləri ildə 85 min dollar məbləğində orta gəlir, minimum stress səviyyəsi vəd edir.

Lazımlı işlərin üçlüyünə həmçinin proqram təminatçısı mühəndisi və kompüter sistemləri üzrə analitik də daxildir. Onlara ildə müvafiq olaraq 85 və 76 min dollar gəlir vəd olunur. Tələb olunan peşələr içərisində habelə bioloqlar, riyaziyyatçılar, mühasiblər, stomatoloqlar, statistiklər və vəkillər də yer alıb. Heç gözlənilmədən onluğu tarixçi sənəti bitirib. Ən tələb olunmayan peşələr siyahısına isə daha çox işçi qüvvəsi kimi baxılan peşə sahibləri daxil edilib. Siyahıda birinci yeri neftayırma zavodunun işçisi tutub. Onun işi kifayət qədər rahatlıqdan uzaq, riskli, əsəbli və az gəlirlidir. Buna görə də ekspertlər bu ildə belə iş yerlərini azalacağını güman edirlər.

### Massajist də, psixoloq da tapılmır

Keçək nisbətən sadə olanlarına. Orta yaşam səviyyəsinin az qala problem olduğu bu günlərdə fiziki müalicə mütəxəssisləri də əldə çıraqla axtarılanlardır. Fikir vermisinizsə, elə ölkəmizdə professional masajçı qıtlığı ilə üzləşirik. Psixoloqlar da Azərbaycanın "Axilles dabanı" sayılır. Təəssüf ki, günümüz insanının əsəb, psixoloji problemlərlə çarpışdığı zəmanədə bu sahədə boşluq özünü göstərir. Terapiya mərkəzləri, ailə psixoloqu kimi mütəxəssislər barmaqla sayılacaq qədərdir. İnternet qəzetçiliyi son 5 ildə artan sürətlə inkişaf etsə də, bunun özəlliyini, dərinliyini bilənlərin sayı azlıq təşkil edir.

Yeni qəzetçilikdə çalışmaq istəyənlər üçün, təəssüf ki, Azərbaycanda təhsil verən yoxdur. Onlar bu sahəni kustar üsullarla, təcrübədə öyrənə bilirlər. Hazırda ölkəmizdə restoran, turizm sektorunun da inkişaf etdiyini nəzərə alanda bu sahənin mütəxəssisləri azlıq təşkil edir. Bir çox məkanlar professional izi ilə xarici ölkələrə üz tutur və bəzən də istəmədikləri sonuncla qarşılaşmalı olurlar.

Xatırladaq ki, gözəllik salonlarında professional vizajist, saç ustası, kosmetoloqlara da ehtiyac duyulur. Hər tində bir salonun açılmasına baxmayaraq, bunu kustar üsullarla edənlər çoxdur. Amma Azərbaycanda professional, işinin əhli olan ustalar həftədə ən azı 400-500 manat qazanır. Bu halda qırmızı diplomlu, amma işsiz mühəndis olmaqdansa, professional saç ustası olmaq daha məsləhətli deyilmi?

Yaxın illərdə bizi gözləyəcək təhlükələr isə bəzi məsləklər üçün də risk əmsalı sayılır. Məsələn, bu günədək aparılan bütün araşdırmalar robotların fəaliyyəti nəticəsində bir çox sahələrdə işçiliyin sıfır səviyyəsinə enəcəyini göstərir. Xüsusən də inkişaf etməmiş ölkələrdə kütləvi halda işsizlik yaranacaq. Bu yaxınlarda xarici mətbuatda oxuduğum bir xəbərə görə, amerikalı fermerlər lazımi araşdırmanı həyata keçirib, meyvə toplayan iki robot üçün sifariş veriblər. Bu robotlardan biri meyvə bağçasında meyvələrin xəritəsini və yetişmə səviyyəsi, böyüklüyü kimi məlumatları toplayacaq. İkincisi isə bu məlumatları toplayıb, bir insan əli həssaslığı ilə meyvələri toplayacaq. İlkin mərhələdə portağal, alma kimi meyvələr nəzərdə tutulub, amma gilas kimi həssas meyvələr üçün də çalışmalar başlanıb.

Bundan başqa, yaxın 10-15 ildə bir çox sektorlarda evdən işləmə sistemi populyar olacaq. Artıq bəzi iş yerlərinin evə daşınması reallığını nəzərə alanda - söhbət komanda işinə ehtiyac olmayan sahələrdən gedir - bu gözlənti o qədər də irreal sayılmır. Xarici firmalar sürətlə evdən işləmə sisteminə keçməyə hazırlaşır. Bununla da şirkətlər öz büdcələrində qənaət edirlər.

Amerikada keçirilən bir araşdırma nəticəsində dünyanın ən çox qazandıran peşələri müəyyənləşdirilib.

Onların siyahısı aşağıdakı kimidir:

1. Marketinq müdiri - illik qazancı 120.070 dollar
2. Kompüter və informasiya sistemi rəhbəri - illik qazancı 120.640 dollar
3. Mühəndislik şirkəti rəhbərləri - illik qazancı 122.810 dollar
4. Stomatoloq - illik qazancı 153.570 dollar
5. Təbiət elmləri mütəxəssisləri - illik qazancı 127.000 dollar
6. Vəkil - illik qazancı 129.070 dollar
7. Ayaq və bilək sağlamlığı üzrə mütəxəssislər - illik qazancı 131.730 dollar
8. Diş protezi mütəxəssisi - illik qazancı 125.400 dollar
9. Pediatr - illik qazancı 161.410 dollar
10. Psixiatr - illik qazancı 163.660 dollar
11. Ədliyyə sistemində icra sistemi rəhbəri - illik qazancı 167.280 dollar
12. Ginekoloq - illik qazancı 204.470 dollar
13. Cərrah - illik qazancı 219.770 dollar

Xatırladaq ki, bu siyahı Amerikada daha çox keçərlidir. Amma inkişaf etmiş Qərb ölkələrində də təxminən eyni peşələr qazanclı və perspektivli sayılır. Azərbaycanda da qəbul imtahanlarının yaxınlaşdığı bu günlərdə sözügedən siyahıya diqqət kəsilmək məsləhətlidir. Gələcəkdə karyerasını xaricdə qurmaq istəyənlər üçün ən sərfəli peşələri öyrənmək maraqlı ola bilər.

### Ali təhsil tələb etməyən, yüksək qazanclı peşələr...

Bu gün əksəriyyətin işlə təmin edilməsi üçün ali təhsilə ehtiyacı var. Ən azı ali təhsili olmalıdır ki, normal maaş ala biləsən. Amma həm də elə peşələr var ki, ən aşağısı ildə 60.000 dollar qazandırır, amma təhsilə ehtiyac yoxdur. Bu da yeddi yüksək maaşlı işlər:

7.Metro və tramvay operatorları

İllik gəlir 62.730 dollar

2012-ci ildə Amerikada metro və tramvay operatorları 63 min dollara yaxın maaş alıblar. Bu iş o qədər də asan iş deyil. Belə ki, işçilər az qala bütün günlərdə çalışmalı olurlar. Onlar üçün bayram günləri keçərli deyil. Üstəlik də onların öhdəliyində minlərlə insanın təhlükəsizlik məsuliyyəti durur.

6.Dəb dizaynerləri

İllik gəlir 62.860 dollar

Ümumiyyətlə, moda dizaynerlərinin gəliri bir az mübahisəli məsələdir. Onların gəlirləri arasında fərqlər olur. Məsələn, Amerikada keçən il moda dizaynerlərinin 10%-i ildə 127 min dollar qazanarkən, qalanları təxminən 35 min dollar qazanıblar. Bu sahədə yaradıcılıq çox önəmlidir. Ən uğurlu dizaynerlərin öz biznesləri və ya mağazaları olur.

5. Dispetçerlər

İllik gəlir 72 min dollar

Elektrik dispetçerləri elektrikin stansiyalar arasında ötürülməsində məsuldurlar. Əgər haradasa qəza olarsa və təmir lazım olarsa onlar təmiri təmin edirlər. Bu iş işçilərdən diqqətli və ehtiyatlı olmağı tələb edir. Çünki elektrik dispetçerlərini hər an tok vura blər və onlar həyatlarını itirə bilərlər.

4. Dedektivlər və kriminal araşdırmaçılar

İllik gəlir 75 min dollar

Dedektiv və kriminal araşdırmaçılar adətən işlərinə polis kimi başayırlar. Sonradan fiziki cəhətdən hazır olduqdan sonra müstəqil olaraq çalışırlar. Onlarda sadəcə güclü hissiyyatın, diqqətin və liderlik qabiliyyətinin olması kifayət edir.

3. Nüvə reaktoru operatorları

İllik gəlir 75 min dollar

Nüvə reaktoru operatorları reaktorları idarə etməklə məşğul olurlar. Onların sahəsində riyaziyyat bilmək lazımdır amma ali təhsil heç də önəmli deyil. Yüksək məsuliyyətə görə bu sahənin işçiləri yüksək maaş da alırlar

2.Lift təmirçiləri

İllik gəlir 77 min dollar

Adətən lift təmirçiləri vaxtlarının çoxunu qaranlıq və nəmişlik yerdə keçirməli olurlar. Həmçinin onların həyatı da çox vaxt risk altında olur. Elə buna görə də onlara yaxşı maaş verilir. Onlar üçün ali təhsil elə də vacib deyil. Sadəcə elektriki, bir az riyaziyyat və bir az da fizika bilmələri kifayət edir.

1.Hava limanı pilotları və uçuş mühəndisləri

İllik gəlir 115 min dollar

Bu gün əksər plotlar uçuş məktəblərini keçməklə kifayətlənirlər. Onların əksəriyyətinin isə bakalavr diplomaları var. Professional pilotlar adətən pilot lisenziyası ilə işləyirlər. Keçən il bu sahədə çalışan dörd işçidən biri ilinə 155 min dollar qazanıb.

❑ **Sevinc TELMANQIZI**

YENİ MÜSAVAT

Son səhifə

N 94 (6415) 2 may 2016



# Şirniyyat sevənlər aqressiv olur

Yeni bir araşdırma ilə məlum olub ki, hər gün böyüklər kimi çoxlu şokolad və konfet yeyən uşaqlar gələcəkdə daha zorakı və aqressiv olur. Bununla bağlı araşdırma Britaniyada 17 min 500 nəfərin statistikasına əsasında aparılıb. Alimlər qərara gəlib ki, 1970-ci ildə 10 yaşı olarkən hər gün şirniyyat mağazasından hər gün nə isə alıb yeyən uşaqların 34 yaşına çatanda zorakılıqda ittiham edilmə ehtimalı yüksəkdir. Tədqiqat Britaniya Psixiatriya Jurnalında dərc edilib. Bu gələcəkdəki zorakılıq halını araşdırmaq baxımından uşaq pəhrizinin uzun müddətli effektlərini ortaya çıxaran ilk tədqiqatdır.

Kardif Universitetinin alimləri 34 yaşında olan 17 min 500 adamın düz 69 faizində aressivlik aşkarlayıb ki, onların da hamısı uşaq yaşlarında hər gün çoxlu şokolad və konfet yediklərini etiraf ediblər. Bu nəticə qənnadi istehsalı ilə zorakılığın idarə edilməsindəki əlaqəni ortaya çıxarıb. Tədqiqatın rəhbəri doktor Saymın Mur bunu belə izah edir ki, uşaqlara hər istəyəndə şokolad ya da konfet vermək onları istənilən şeyi əldə etmək üçün necə gözləmək lazım gəldiyini öyrənməkdən uzaqlaşdırır. Mükafatlandırmanı təxirə sala bilməmək onları daha inadla düşüncəsiz hərəkət etməyə sövq edə bilir.

Alimin fikrincə, zorakılıq baxımından qənnadı istehlakına diqqət yetirilməlidir. Uşaq pəhrizi onların sağlamlığını yaxşılaşdıra və zorakılığa meyillərini azalda bilər.

# 10 il öncə itkin düşən iti sahibinə qaytardılar

Alabama sakini Treysi Dava baytarlıq klinikasından zəng edərək 10 il öncə itkin düşən itini tapdıqlarını deyiblər. Lenta.ru saytının xəbərinə görə, bütün bu illər ərzində qadın əmin Çarli ləqəbli itinin öldüyü qənaətində olub. Klinikanın sahibləri şəhərdəki elanlardan və itin ümumi əlamətlərindən sahibinin kimliyini müəyyənləşdiriblər. Heç kim bilmir ki, bu 10 il ərzində yaşadığı evdən 400 kilometr aralıda tapılan it necə və kimin yanında həyat keçirib. O, 2006-cı ildə, cəmi 1 yaşı olanda itkin düşüb. Bu 10 il ərzində itin səhhətində ciddi problemlər yaranıb. Müalicə olunandan sonra onu sahibinə verəcəklər.



# Az yatanlar daha çox kalori alır

Yuxusuz qalmaq, sadəcə, ertəsi gün yorğunluğa səbəb olmur. Bu, eyni zamanda, insanın daha çox yeməsinə və uzun müddət davam edərsə, piylənməyə də gətirib çıxarır. Amerika Birləşmiş Ştatlarındakı klinikalardan birində aparılan araşdırma az yatanların gün ərzində daha çox kalori aldığını ortaya çıxarıb. Araşdırmaya qoşulanların yarısı normal müddətdə yatdıqları halda, digər yarısı isə bu müddətin üçdə ikisi qədər yatırdılar.

Yuxunun leptin və qrelin hormonları üzərində təsiri olub-olmadığı gözlənilirdi. Araşdırma müddətində digərlərindən 1 saat 20 dəqiqə az yatan adamlar orta hesabla 549 kalori daha çox alıblar. Tədqiqatı aparan mütəxəssislər piylənmə və yuxu ilə bağlı əlaqənin diqqətçəkən məqamları olduğunu bildirirlər. Doktor Andryu Kalvinin sözlərinə görə, insanlar özləri də bunu az yatdıqları günlərdə müşahidə edə bilərlər.





# Qum saatı şəklində yumurta

Türkiyənin Hardalık kəndində yaşayan Osman Akkoca adlı fermerin evində saxladığı toyuqlardan biri qəribə formalı bir yumurta yumurtlayıb. Türkiyənin "Milliyyet" qəzetinin xəbərinə görə, normal yumurtadan daha kiçik olan və qum saatını xatırladan yumurta ev əhlini təəccübləndirib. O.Akkoca yumurtanı götürərək öncə dostlarına, daha sonra isə Kadirli bölgəsindəki hər kəsə göstərib. Yumurtanı cibində daşıyan O.Akkoca onun qırılmaması üçün əlindən gələni edib: "Mən kənddə yaşayıram. Orda da toyuqlarımız var. Toyuqların yumurtalarını hər sabah toplayıram. Bu gün də belə bir yumurta ilə rastlaşdım. Mənə çox dəyişik göründü. Həyatımda belə bir yumurta görməmişəm. Xarici görünüşünə görə normal yumurtadan heş nə ilə fərqlənmir. Yumurtani qırıb yeməyi düşünmürəm. Onu saxlaya bildiyim qədər saxlayacam".




**QOÇ** - Ulduzlar gün ərzində yeniliklərlə rastlaşacağınızı proqnozlaşdırır. Bu səbəbdən gün ərzində bir an da boş dayanmamalısınız. Axşama doğru yaxın bildiyiniz kəslərə qonaq gedə bilərsiniz.

**BUĞA** - Gün ərzində əsas idarəetmə öz əlinizdə olacaq. Odur ki, qarşıya qoyduğunuz məqsədlərə yetişməkdə bir qədər israrlı olmağınız vacibdir. Hər şeydən öncə informasiya toplamağa çalışın.

**ƏKİZLƏR** - Ailə-sevgi münasibətlərinə ədalətli mövqedən yanaşsanız, heç bir probleminiz olmayacaq. Fəaliyyət zəminində də olaylar xeyrinizə işləyəcək. Amma rəhbərliklə mübahisə yaratmayın.

**XƏRÇƏNG** - Günün ilk yarısında bacardığınız qədər diqqətli olun ki, hər hansı fiziki zədə almayasınız. Təxminən saat 15-dən sonra isə bir neçə hadisə sizi məmnun edəcək. Bu gün səfərə çıxmayın.

**ŞİR** - Münasibətlər sistemində diqqətli və ədalətli olun, ələlxüsus da ailə müstəvisində. Əgər qarşınızda duran bu təqvimdə hər hansı mübahisəyə yol versəniz, bu, uzun müddət davam edəcək.

**QIZ** - Əsas gücünüzü fəaliyyətə yönəldin. Öz bacarıq və məsuliyyətinizlə hörmət qazanmağa çalışın. Şəxsi büdcənizdə artım etmək üçün apardığınız danışıqlarda maksimum ehtiyatlı olun.

**TƏRƏZİ** - Daima ünsiyyətdə olduğunuz doğma və yaxınlarınıza xüsusi qayğı göstərin. Çünki planetlərin bürcünüzdəki neqativ düzülüşü hər türlü mübahisədən qaçmağa əsas verir. İstirahət etməyə dəyər.

**ƏQRƏB** - Bu gün xeyriyyəçi timsalında davranın. Hər hansı münaqişəni və ya düşmənçiliyi təsəvvürünüzə belə gətirməyin. Ünsiyyətdə olduğunuz insanları anlamağa çalışın. Yalan vəd verməyin.

**OXATAN** - Əsas gücünüzü maliyyə problemlərinin həllinə yönəldin. Bunun üçün bütün mümkün variantları gözdən keçirin. Qarşınızda işlə bağlı yeniliklər də gözlənilir, amma səhhətinizi də qorumalısınız.

**OĞLAQ** - Hər şeyə loyal yanaşın, ənənəvi olmayan heç bir işə müdaxilə etməyin. Nəzərə alın ki, bu gün hər hansı risk uğursuzluqla nəticələnə bilər. Siyasi proseslərdə isə "pərdə arxasına" keçin.

**SUTÖKƏN** - Ötən ay xeyli işləriniz yarımçıq qaldığından bütün gücünüzlə onları başa çatdırmalısınız. Çünki bugünkü qədər şanslı olmayacaqsınız. Amma bütün qərarlarda ədalətə söykənməyə çalışın.

**BALIQLAR** - Əgər təkbaşına hər hansı işin öhdəsindən gələ bilmirsinizsə, etibar etdiyiniz insanlarla məsləhətləşin. Ümumiyyətlə, bu gün kənardan deyilən tövsiyələrə daha ciddi yanaşın.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# 100 yaşlı qadın manekenlik etdi



Böyük Britaniyanın Birminqem şəhər sakini olan 100 yaşlı qadın "Vogue" adlı moda jurnalı üçün fotosessiya etdirib. "Harvey Nishols" şəbəkəsinin reklam çəkilişləri jurnalın tvitter səhifəsi vasitəsilə yayımlanıb. Bo Hilbert adlı qadın mağazalar şəbəkəsinin reklam siması olacaq. Fotosessiya üçün britaniyalı qadın Valentino firmasının eynəklərini, Dries Van Noten firmasından gödəkçə, Celine firmasından isə ayaqqabı geyinib. Bu, yaşlı qadının model kimi ilk çəkilişi sayılır.

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Zahid SƏFƏROĞLU

Lisenziya N: B 114
SAYI: 4.750

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "E-Q" mətbəəsində çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.